www.paralel.az

Paralel

İctimai-siyasi qəzet

14

oktyabr
2021-ci il

№ 251-252 (3545-3546)
Qiyməti 20 qəpik

Yenə başladılar

Dünən Suqovuşan qəsəbəsindən Kəlbəcər rayonu istiqamətində hərəkət edən və mülkü yük daşıyan avtomobil karvanımız Qozlukörpü yaşayış məntəqəsi yaxınlığında Qarabağda mövcudluğunu qoruyub saxlayan erməni silahlı dəstələri tərəfindən atəşə məruz qalıb.

Səh. 2

● GünXəbər

Ərdoğan Füzuli aeroportunun açılışına qatılacaq

Azərbaycan və Türkiyə Prezidentləri İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğan noyabrın 8-də Füzuliyə səfər edəcəklər.

Prezidentlər Şuşa şəhərinin azad olunmasının birinci ildönümündə Füzuli hava limanının açılışını edəcəklər.

Quru Qoşunlarının komandanı Türkiyəyə gedib

Müdafiə nazirinin müavini – Quru Qoşunların komandanı general-mayor Ənvər Əfəndiyev Türkiyəli həmkarı, ordu generalı Musa Avseverin dəvəti ilə Türkiyəyə yola düşüb.

Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib. General Ə.Əfəndiyev İstanbulda keçirilən "Avrasiya sülhü - 2021" təliminin oktyabrın 14-də "Yüksək Səviyyəli Müşahidəçi Günü"ndə iştirak edəcək.

Qanun layihəsi yekunlaşmaq üzrədir

"Azərbaycanın tarixi qələbəsi regionda yeni reallıqlar yaradıb. Ölkəmizin yaratdığı reallıqların olduğu kimi dünya ictimaiyyətinə çatdırılması medianın üzərinə düşür".

Bu fikirləri MEDİA-nın İcraçı direktoru Əhməd İsmayılov "Media və Hüquqi Maarifləndirmə" mövzusunda keçirilən tədbirdə deyib. Onun sözlərinə görə, "Media haqqında" yeni qanun layihəsi artıq yekunlaşmaq üzrədir: ***"Qanun layihəsi bundan sonra aidiyyəti üzrə təqdim ediləcək".***

Türk dünyası Azərbaycandan qidalanır

Dünya Turanın doğuşunu gözləyir

Səh.3

Nə vaxta qədər İran ayətullahlarına biət edəcəyik?

Azərbaycanlılar hər il İrana milyonlarla dollar xüms göndərir

Səh. 5

Sosial vəziyyət gərginləşir

Artıq deputatlar da dil açdı

Səh. 13

Paralel

Son səhifə

www.paralel.az
e.mail adresi:
paralel_qazeta@mail.ru

№ 251-252 (3545-3546) 14 oktyabr 2021-ci il * Gündəlik ictimai-siyasi qəzet * Qiyməti 20 qəpik

Kim Çen Inın hobbisi məlum olub

Britaniyalı jurnalistlər Şimali Koreya lideri Kim Çen Inın hobbisi haqqında məlumat əldə ediblər.

Belə ki, siyasətçi yeni turizm konsepsiyalarını öyrənib və butulka, yük maşınları, məktəb forması, həmçinin şirkətlər üçün loqotiplər hazırlamağa başlayıb.

Jurnalistlər bu qənaətə Pxenyandakı sənaye dizaynı sərgisində iştirak edən Şimali Koreya liderinin əlindəki bloktontan çəkilən yeni fotoşəkillərə əsasən öyrəniblər.

Qeyd olunur ki, Pxenyandakı sərgidə Kim Çen Indan başqa Şimali Koreyadan olan və müxtəlif dizayn layihələrini təqdim edən şəxslər iştirak edib.

Hüseyn Ramzan Kadırovun iqamətgahında

Rusiyada məşhurlaşan azərbaycanlı bloger Hüseyn Həsənov Çeçenistanın lideri Ramzan Kadırovla görüşüb.

Bu barədə bloger İnstaqram səhifəsində məlumat verib.

Liderin iqamətgahında qonaq olan Hüseyn onunla çəkdirdiyi fotoları izləyiciləri ilə bölüşüb.

Korona 3 il davam edəcək

COVİD-19-un yoluxma dinamikasını əsas götürsək, bu virusu keçən əsrin əvvəllərində 3 il mövcud olmuş ispan qripi ilə müqayisə etmək olar.

Bu sözləri rusiyalı virusoloq, professor Aleksey Yakovlev deyib.

”Təbiət ispan qripini yumşaltdı. Xəstəlik 3 il davam etdi. Bu zaman ərzində virusun təbii mutasiyası, insanlar arasında immunitetin formalşaması prosesi baş verdi. Təbiət hələ ki, başqa bir şey tapmadı”, - deyə virusoloq bildirib. Onun sözlərinə görə, COVİD-19 da ispan qripi kimi ağır davam edir və ”sitokin fırtınasına” yol açır:

”COVİD-19 müəyyən zamanla mövsümi xarakter daşıyacaq və buna qarşı hər il peyvənd olunmaq lazım gələcək”.

AST Telmanın videosu yayıldı: Görün kimdən nə xahiş edir

Hazırda Rusiyanın tələbi ilə saxlanılan Telman İsmayılovun sosial mediada bir dəqiqəlik videosu yayılıb.

Videodan aydın olur ki, Telman İsmayılov məhkəmənin gedişindən, həmçinin obyektiv aparılmayacağından narahatdır və hüquq- mühafizə orqanlarına, eyni zamanda məhkəməyə müraciət edir, Kərimov soyadlı şəxsin məhkəməyə gətirilməsinin arzusunda olduğunu bildirir.

Xatırladaq ki, Çerkizovski bazarının keçmiş direktoru, AST Telman ləqəbi ilə tanınan Azərbaycanlı iş adamı Telman İsmayılov oktyabrın 2-də Monteneqroda saxlanılıb. Onun barəsində 2 aylıq həbs- qətimkan tədbiri seçilib. Son məlumatlara görə, onun Rusiyaya ekstrasiyası ilə bağlı hazırlıq gedir.

Qadın mikroavtobusu saçı ilə dartaraq yanacaqdoldurma məntəqəsinə çatdırdı

İngiltərənin Northempton şəhər sakini mikroavtobusu dartaraq yanacaqdoldurma məntəqəsinədək çatdırıb. Bunun üçün 34 yaşlı xanım öz saçlarından istifadə edib.

Polşa əsilli sirk ustası Anastasiya Savitskanın şəhər küçələrindəki şousu ətrafdakıların marağına səbəb olub.

Ssenariyə uyğun olaraq, o, yanacağı bitərək yolda qalmış nəqliyyat vasitəsinin ön hissəsinə xüsusi kəmər bərkidib. Kəmərin digər ucunu isə saçlarına bağlayaraq, nəqliyyat vasitəsini yanacaqdoldurma məntəqəsinədək dartıb.

Təsisçi və baş redaktor:
Tapdıq Abbas

Birinci müavin:
Akif Nəsirli

Baş redaktorun müavini:
Şahnaz Salehqızı

Sosial-siyasət şöbəsinin müdiri:
Mahir Abbaszadə
İnformasiya şöbəsinin müdiri:
Röyal Əsədli

Qarabağ bürosunun redaktoru:
Elman İsrafiloğlu

www.paralel.az saytının operatoru
Murtuza Sudeyifoğlu

Bölgə müxbirləri:
Vaqif Cəmiloğlu
Rəşid Nəcəfli
Əlizadə Nəhmədağaoğlu
İlkin Əsədzadə

Qəzet 16 fevral 2002-ci ildən çıxır.
Ünvan: AZ 1073, Azərbaycan, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, 6-cı mərtəbə
“Azərbaycan” nəşriyyatı
Tel: **510 15 07**, Fax: **510 15 06**
E_mail: paralel_qazeta@mail.ru
Qəzet “Son Dakika” MMC-nin mətbəəsində çap olunub.
Əlyazmalara rəy verilmir və geri qaytarılmır.
Qeydiyyat №257
Sifariş: **2185** Tiraj: **1550**

"İran sabitliyi pozan amildir"

ABŞ Və Rusiyanın ortaq marağı

"İran sabitliyi pozan amildir". Bu barədə çərşənbə axşamı Dövlət Departamentinin rəsmi nümayəndəsi Ned Prays Turan-ın müxbirinin İran və Azərbaycan arasındakı son çəkişmələrlə bağlı sualına cavabda bildirib.

"Söhbət İranın regional fəaliyyətindən gedirsə, biz açıq şəkildə öz mövqeyimizi bildirmişik. İran bir çox cəhətdən, o cümlədən yerlərdə İranyönlü qüvvələrə dəstəyi, təhdidləri və bəyanatları da daxil olmaqla, sabitliyi pozan subyektdir", - deyə Prays bildirib.

Son həftələr Tehran və Bakı arasında münasibətlər durmadan pisləşib, buna sərhədin hər iki tərəfində hərbi təlimlər, həmçinin İsrailin hərbi iştirakı ilə bağlı ittihamlar səbəb olub, ki, Azərbaycan bu ittihamları qəti şəkildə inkar edir.

Vaşinqton İran ətrafında bu yaxınlarda baş verən hadisələri susqunluqla müşahidə edir, belə ki, Bayden administrasiyası Tehranla 2015-ci il tarixli nüvə sövdələşməsinə qayıtmağa çalışır.

Bu arada, İsrailin xarici işlər naziri Yair Lapid çərşənbə axşamı Vaşinqtonda prezident Co Baydenin milli təhlükəsizlik üzrə müşavirinə bildirib ki, İran "nüvə dövlətinə çevrilir" və ABŞ-ın "alternativ plana" ehtiyacı var.

Dövlət Departamentində mətbuat konfransı zamanı Prays həmçinin dövlət katibinin müavini Viktoriya Nulandın Moskvaya səfərinə, orada İranın nüvə proqramını da müzakirə etməsinə toxunub.

"ABŞ və Rusiyanın ortaq bir marağı var ki, İran heç vaxt nüvə silahı əldə edə və ya ala bilməsin", - deyə o bildirib.

Yenə başladılar

Kəlbəcərə gedən avtomobil karvanına atəş açıldı

Oktyabrın 13-ü saat 14:00 radələrində Kəlbəcər rayonu ərazisində mülki infrastrukturun tikintisi məqsədilə Tərtər rayonunun Suqovuşan qəsəbəsindən Kəlbəcər rayonu istiqamətində hərəkət edən və qeyri-hərbi yükləri daşıyan avtomobil karvanı Qozlukörpü yaşayış məntəqəsi yaxınlığında qanunsuz erməni silahlı dəstələri tərəfindən atəşə məruz qalıb.

Bu barədə Azərbaycan Müdafiə Nazirliyindən məlumat verilib.

"Atəş nəticəsində kolonun önündə hərəkət edən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Polisinin Hərbi Avtomobil Müfəttişliyinin "NİVA" markalı avtomobilinin ön, arxa hissəsi, təkəri və hərəkət mexanizmləri zədələnib.

Xoşbəxtlikdən ölən və yaralanan yoxdur.

Azad olunmuş ərazilərdə mülki infrastrukturun bərpa edilməsi üçün Rusiya sülhməramlılarının müşayiəti ilə hərəkət edən mülki təyinatlı avtomobil karvanının qanunsuz erməni silahlı dəstələri tərəfindən atəşə tutulması yolverilməzdir.

Bu insidentin araşdırılması üçün Azərbaycan Respublikasının Qarabağ İqtisadi Rayonunun müəyyən hissəsində müvəqqəti olaraq yerləşdirilmiş Rusiya sülhməramlı qüvvələrinin komandanlığına və Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinə müraciət edilib", - nazirlikdən bildirilib.

Mövlud Çavuşoğlu Ermənistana xəbərdarlıq edib

"Ermənistan vaxtilə işğal altında saxladığı və İkinci Qarabağ müharibəsi nəticəsində azad edilən Azərbaycan ərazilərində hər şeyi yerlə-yeksan edib, yandırıb, dağıdıb. Ancaq bu gün Azərbacan hökuməti Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağda xeyli işlər görüb. Əminəm ki, Azərbaycan dövləti həmin əraziləri yenidən bərpa edəcək və ora həyat qayıdacaq".

Bunu "Report"un ABŞ bürosuna müsahibəsində Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu deyib.

Nazir vurğulayıb ki, Türkiyə Azərbaycana əlindən gələn dəstəyi verir və gələcəkdə də verəcək: "Ancaq Qarabağda yenidənqurma işlərinin sürətlənməsi üçün ermənilər tərəfindən həmin ərazilərdə basdırılan minaların təmizlənməsi lazımdır. Bunun üçün kifayət qədər texnologiya da var. Ancaq həmin ərazilərdə minaların harada basdırıldığı məlum deyil. Ermənilər minalanmış ərazilərin bəzilərinin xəritələrini Azərbaycana veriblər, ancaq digərlərini isə hələ də verməyiblər.

Hesab edirəm ki, Ermənistanın ən qısa zamanda bu məsələləri asanlaşdırmaq, sülh və əməkdaşlıq münasibətlərini normallaşdırmaq istiqamətində müsbət addımlar atması lazımdır. Ermənistan həmin ərazilərdə basdırdığı bütün mina xəritələrini ən qısa zamanda Azərbaycana verməlidir. Çünki ərazilər minalardan təmizlənməlidir ki, insanlar öz yurd-yuvalarına dönərkən həyatlarını itirməsinlər. Can Azərbaycan heç vaxt tək olmayıb və biz heç bir vaxt Azərbaycanı tək buraxmayacağıq. Bunu hər kəs bilsin!"

Şuşada modul tipli xəstəxana açıldı

Şuşa şəhərində yeni modul tipli xəstəxana açılıb.

Bu barədə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) Sənədlər və Vətəndaş Müraciətləri ilə İş departamentinin müdiri Aygün Əliyeva sosial şəbəkələrdə məlumat yayıb:

"Dədə-baba torpaqlarından uzaq düşmüş vətəndaşlarımızın öz doğma yurdlarına qayıtması prosesində yaxından iştirak edən şəxslərə fasiləsiz tibbi xidmətin göstərilməsi üçün Şuşa şəhərindəyik".

"Zəngəzur dəhlizi təkcə İranı deyil, Hindistanı da narahat etməyə başlayıb"

Hindli nazir Ermənistana gəlib

Erməni politoloq, radikal açıqlamaları ilə tanınan Vardan Voskanyan son vaxtlar İranın bölgədə gərginliyi artırmasının səbəbini izah edib.

Yerli mediaya açıqlama verən politoloq rəsmi Tehranın ardınca Hindistanın da Ermənistanla münasibətləri dərinləşdirməsinin təsadüfi olmadığını deyib.

- Son günlər bölgəmizdə vəziyyət gərginləşib. Hazırda Zəngəzur dəhlizi kimi tanınan Turan dəhlizi təkcə İranı deyil, Hindistanı da narahat etməyə başlayıb. Bu səbəbdən bu iki ölkə əlindən gələni edir ki, yeni iqtisadi-siyasi layihələr reallaşdırsın.

Erməni politoloq Tehranın bölgədəki qarışıq siyasi proseslərdə aktivlik göstərdiyini xüsusi vurğulayaraq ölkəsinin Zəngəzur dəhlizinə deyil Hindistanla İranın təklif etdiyi yeni layihələrə dəstək olmalarını vacib sayıb.

Qeyd edək ki, dünən Hindistan Xarici işlər naziri Subrahmanyam Cayşankar Ermənistana gəlib. O, Ermənistana səfər edən ilk Hindistan xarici işlər naziridir.

Tural Tağıyev

Ermənistan İrandakı səfirini geri çağırdı

Artaşes Tumanyan Ermənistanın İrandakı fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılıb.

Bu barədə Ermənistan prezidenti Armen Sarkisyanın fərman imzlayıb.

Qeyd edək ki, Artaşes Tumanyan uzun illər Ermənistanın İrandakı fövqəladə və səlahiyyətli səfiri vəzifəsini tutub.

ELAN

Qərbi Kasbi Universitetinin Filologiya və Tərcümə fakultəsinin tələbəsi Reyhan Mustafayevanın adına verilmiş 328 F2 saylı tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Putin-Paşinyan görüşünə dair diqqətçəkən üç məqamı

Putin-Paşinyan görüşü informasiya qıtlığı ilə keçdi. Görüşlə bağlı diqqətçəkən cəmi üç məqama toxunmaq olar.

Birincisi, tərəflərin əsas müzakirəni nahar süfrəsi ətrafında aparmasıdır:

- Putin bununla Ermənistan-Rusiya münasibətlərində "hər şey qaydasındadır" mesajını verirdi;

- Və yemək masası arxasında lazımı məsələlərin razılaşdırılması daha asan olur;

Nikolun səfərinin Ərdoğan-Putin görüşündən sonra olması da əsas müzakirə mövzusunun kommunikasiyanın açılması (Zəngəzur dəhlizi də daxil olmaqla), əməkdaşlıq platformasının yaradılmasıdır. Putinin Paşinyan üçün açdığı süfrədə bu məsələlərin müzakirə edildiyi şübhəsizdir, lakin nəticələrlə bağlı hələi heç bir ip ucu yoxdur.

Təmaslpr Bakı-Moskva-İrəvan xəttində olacaq

İkincisi, Putinin görüşdən öncə açıqlaması idi.

Rusiya prezidenti bildirdi ki, *"Telefonla davamlı əlaqə saxlayırlar, lakin şəxsi görüş istənilən nəticəni əldə etmək üçün həmişə məhsuldar olur, ümid edirəm, bu dəfə belə olcaq".*

Bu, Putinin Paşinyanı istənidiyi nəticəni əldə etmək üçün dəvət etdiyini təsdiqləyir və nahar süfrəsində buna nail olduğu da istisna eyil. Paşinyanın görüşdən sonra *"əldə olunan razılaşmaları həyata keçirmək üçün təmasları davam etdirəcəyik"* tviti də bu fikri gücləndirir. Və təmasların təkcə Moskva ilə yox, Bakı-Moskva-İrəvan xəttində olacağı da gözlənilməndir.

Üçüncüsü, Paşinyanın görüşdən öncə media qarşısında qısa söhbətdə "Qarabağ münaqişəsinin bitmədiyini" elan etməsidir. Putinin bu məsələnin üzərindən keçdiyi də diqqətdən yayınmadı.

Nikolun bu açıqlaması gözlənilməndir və bundan sonra da eyni tipli bəyanatlar verəcək. Lakin bunun Azərbaycan-Ermənistan sülh müqaviləsinə təsiri yoxdur, çünki müqavilədə Qarabağ məsələsi ümumiyyətlə olmayacaq və Nikolun indi siyasi ritorika naminə belə deməsi başadüşüləndir.

Asif Nərimanlı

Tapdıq Abbas

Tarixdən bilirik ki, 1747-ci ildə Nadir Şahın düşmənlər tərəfindən zəhərlənib, öldürülməsindən sonra Azərbaycan dövləti dərin tənəzzülə düçar olub. Bütün Qafqaz bölgəsindən Hindistana qədər böyük ərazini əhatə edən Azərbaycan Türk dövləti daim Rusiyanın və onun düşmənçilik məqsədinə xidmət edən fars, erməni və digər Türk düşmənlərinin şovinist maraqlarının hədəfinə çevrilib.

Türk dünyası Azərbaycandan qidalanır

Dünya Turanın doğuşunu gözləyir

Bu tarixi prosesdə dünya Türklərinin özlərinin aralarında baş vermiş, nəticəsi düşünülməmiş mənasız daxili çəkişmələr də düşmənlərin əlinə işlədiyini tarix çoxdan sübut edib...

1747-ci ildən başlayan, 1813 və 1828-ci illərdə 2 yerə bölünməklə davam edən, çarizmin dağılması ilə 1918- ci ildə müstəqillik qazansa da, 1920-ci ildə yenidən rus bolşevik işğalına məruz qalan Azərbaycan dövləti daha 70 il də SSRİ adlanan şər imperiyasının tərkibinə zorla qatıldı.

Nəhayət, SSRİ-nin ermənipərəst baş katibi M. Qorbaçovun başladığı "yenidənqurma" SSRİ-nin çoxdan gözlənilən dağılma prosesinə start verdi.

İmperiyanın tərkibində olan xalqlarla bərabər Azərbaycan xalqı da azadlıq, müstəqillik uğrunda mübarizənin ön cərgəsində yer aldı.

Ruslar Azərbaycanı əsarətdə saxlamaq üçün 1923-cü ildə ölkəmizin tərkibində yaratdıqları "DQMV" adlı saxta qurumda yaşayan ermənilər hərəkətə keçirdilər.

Lakin Azərbaycan xalqı rusların yaratdıqları bütün əngəl və maneələrə, hərbi təcavüzə , Moskvanın Dağlıq Qarabağda yaratdığı ərazi iddialı rejimlərlə razılaşmadı və meydanlara axdı. Bakının Azadlıq Meydanı qazan kimi qaynadı, xalq azadlıq təşnəsinə elə tutulmuşdu ki, ölümdən belə qorxmurdu.

Elə bu zaman M. Qorbaçov xəbərdarlıq etmədən gecəyarısı Bakıya SSRİ-nin ən ağır hərbi texnikasını yeritdi. Tərkibi əsasən erməni zabitlərdən ibarət olan cinayətkar xunta əliyalın silahsız insanlara və xalqa atəş açaraq 130-dan çox insanı qətlə yetirdi, minlərlə insanı şikəst və əlil etdi, insanlığa qarşı ağır cinayət etməkdən çəkinmədi.

Əslində, düşmən 1990-cı il 20 yanvar faciəsilə xalqımızın azadlıq əzmini qırmağa çalışsa də, əksinə bu təcavüzü ilə xalqımızın azadlıq atəşini daha da alovlandırdı. Bu alov öz son məqsədinə yetişdi və 18 oktyabr 1991-ci ildə çox çətin və ağır insan itkilərindən sonra Azərbaycan 70 il əvvəl itirdiyi müstəqilliyini bərpa etdi.

Atalardan yaxşı bir məsəl qalıb: *"it əl çəkir, motal əl çəkmir"*.

Yəni Rusiya və İran əl çəkmədilər, erməni formasında 1991-1993-cü illərdə torpaqlarımızın 20 faizini işğal etdilər, 30 mindən çox insan şəhid oldu, bir milyondan çox vətəndaşımız qaçqın və köçkün duruma düşdü...

Minsk Qrupu deyilən "xristian klubu"na daxil olan ABŞ, Fransa, Rusiya 30 il ərzində BMT TŞ-nin qəbul etdiyi 4 qətnaməni yerinə yetirmək əvəzinə ermənilərə dəstək verdilər. Azərbaycana dağ üstündən dağ çəkməklə məşğul olan Türk və islam düşmənlərinin sırasında tək xristian ölkələri olsaydı, adama pis təsir etməzdi. Xalqımıza pis təsir edən İran kimi özünü islam dövləti adlandıran, 40 milyondan çox türkü 2 əsrdir istismar edən və hazırda mollaların 42 ildir qurduğu Fransa və Rusiyaya xidmət edən İran rejiminin Ermənistanın yanında və qulluğunda durmasıdır...

Bir il öncə isə Azərbaycan əleyhinə Ermənistan ətrafında birləşmiş düşmən cəbhəsindəki dövlətlər Azərbaycana qarşı yeni işğalçılıq siyasətinə baş vurdular. Ermənistanı yenidən hərbi təxribatlar törətməyə sövq etdilər. Bu zaman düşmənlər Azərbaycanın hansı böyük gücə malik olduğundan bixəbər idilər.

27 sentyabr 2020-ci ilədək Azərbaycana qarşı hər cür alçaqlığa əl atan düşmənlər qarşısına çıxan hərbi gücün qarşısında aciz qaldı və işğal etdiyi əraziləri və döyüşdüyü silahı atıb qaçmaqdan başqa çıxış yolu tapmadı.

Vətən torpaqlarının azadlığı uğrunda Ermənistanla başlanmış və 44 gün davam edən ölüm-qalım müharibəsində Azərbaycan xalqı və ordusu, ordunun Ali Baş Komandanı həm döyüşdə, həm də dünyada misli bərabəri olmayan birlik və həmrəylik nümayiş etdirərək, qardaş Türkiyə və Pakistanın mənəvi dəstəyilə düşmən ordusunu darmadağın etdi!

Tarix göstərdi ki, düşmən Ermənistan ordusunun bu ağır kapitulyasiyası tək Ermənistan ordusunun yox, eyni zamanda, bütün Türk düşmənlərinin ağır məğlubiyyətlərinin başlanğıcıdır!

Ermənistanın kölgəsində gizlənmiş düşmənlərin sırasını tam müəyyən etmək çətin olmadı. Bu sırada İranı görməkdə heç kimi təəccübləndirmir. Azərbaycana və bütün Türk dünyasına İranın hansı düşərgədə yer aldığı çoxdan bəlli idi. Sadəcə, bu dəfə onun geydiyi saxta islam maskası cırıldı və saqqal altından xaç çıxdı...

Azərbaycan qardaş Türkiyə və Pakistan dövlətlərilə əl-ələ verərək bundan sonra Turan ordusunu qurmağa başladığını ard-arda həyata keçirilən hərbi təlimlərlə dünyaya bəyan edir. Zəngəzur dəhlizi açılacaq və Türk dünyasını birləşdirəcək bu yolun qarşısını heç bir güc kəsə bilməyəcək...

Saxta islam maskası cırıldı və saqqalın altından xaç çıxdı

Fransanın Ermənistandakı səfiri Anne Luyo maraqlı açıqlama ilə çıxış edib. Xanım səfir ölkəsinin Rusiya və ABŞ-la Qarabağa dair uzun müddətli müqavilə imzalamağa hazırlaşdığını bildirib.

Anne Luyo bölgədə davamlı sabitliyin təmin olunması üçün ATƏT-in Minsk Qrupu ölkələrinin prossesdə iştirakının vacibliyini dilə gətirib.

ATƏT-in Minsk Qrupunun yenidən "dirilməsi" Azərbaycana nə vəd edir? Məşhur üçlüyün təkrar bir araya gəlməsi Azərbaycanın Vətən müharibəsində əldə etdiyi qələbəyə kölgə sala bilərmi?

ATƏT-in Minsk qrupunu kimlər "dirildir"?

"Demaqoqcasına, ermənipərəst mövqe tutmaqla..."

Mövzu ilə bağlı açıqlama verən politoloq Qabil Hüseynli bildirib ki, 44 günlük müharibədən sonra bir sıra beynəlxalq təşkilatlar və dövlətlər sanki Qarabağ probleminin həlli ilə bağlı məsələlərdə kənarda qalmaları ilə barışmaq istəmirlər:

O qeyd edib ki, bu səbəbdən son zamanlar ABŞ və Fransa daha da fəallaşıb. Onlar hər vasitə ilə Cənubi Qafqazda ən uzun müddətli münaqişə olan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələlərdə özlərinin iştirakını təmin etməyə çalışırlar.

"Əvvəllər Minsk Qrupu formatı var idi. Amma onlar prosseslərə təsir etmək imkanına malik olmadıqları üçün uzun müddətdir prosseslərdən kənarda qalmışdılar. Müharibə qurtarıb, nizamlanma, sülh yaradıcılığı prossesi gedir. Zəifdir ya sürətlidir, bunu demək çətindir. Amma hər halda bu prosses hərəkətdədir və bu prossesin əsas lokomotivi kimi Rusiya çıxış edir. Türkiyyə də bu prosseslərdə iştirak edir, ancaq Rusiyanın təsiri daha çox hiss olunur. Rusiya ikili oyun oynayır. Bir tərəfdən bu prosseslərə digər fövqəl gücləri qatmaq istəmir, Cənubi Qafqazda tam öz hökümranlığını, geostratteji üstünlüyünü qorumağa çalışır. Digər tərəfdən isə Minsk Qrupunun yenidən fəaliyyətə başlamasını müdafiə edir. Son zamanlar məhz Fransanın demaqoqcasına, açıq ermənipərəst çağırışlar etməsi ilə Minsk qrupunun canlandırılmasının zəruriliyindən danışırlar. Və Amerika da bu prossesə qoşulub."

Politoloqun sözlərinə görə, müharibənin gedişində Makron Ermənistanın baş nazirinə bildirib ki, status məsələsindən narahat olmasınlar, onu təmin edəcəklər. İndi isə status məsələsi Azərbaycanın prezidentinin ifadəsi ilə desək, "gorbagor" olub. Kimlər diriltmək istəyirsə, aparsın öz ərazisində diriltsin. Qərb ölkələrində ikili standartlar, anti-müsəlman əhval-ruhiyyə açıq və qabarıq sürətdə özünü göstərir. İstər sülhyaratma prossesi olsun, istər bölgədə əminamanlıq yaratmaq mövzularında həmişə anti-müsəlman mövqeyi sərgiləyirlər.

Q.Hüseynli Qarabağda yaşayan ermənilərin status arzusunu da dəyərləndirib:

"Özü də az qala müstəqillik səviyyəsinə çatan statusdan söhbət açırlar. Zənnimcə, Minsk qrupu, xüsusilə də Minsk Qrupunu təmsil edən ölkələr birləşib ümumi şəkildə bəyanat imzalasalar və bu bəyanatı nimazlamanın mərkəzinə qoysalar, bu prosses alınmayacaq. Xristian ölkəsinin dedikləri, bir tərəfli və ermənipərəst mövqelər Azərbaycan üçün yerinə yetirilməsi mümkün olmayan prossesdir. Azərbaycan bu prossesin qalibidir. Öz ərazi bütövlüyünü təmin edən ölkə kimi bundan sonra bölgədə baş verən prosseslərdə söz sahibi Azərbaycan olmalıdır. Dünyanın o başından gəlib Cənubi Qafqazda problemlərin həllini ermənipərəst mövqedən həll etməyə çalışacaqlarsa, bu problemi çözməyəcək, əksinə daha da mürəkkəbləşdirəcək. Azərbaycan Minsk Qrupunun yenidən fəaliyyətinə bu şərtlə razılıq verdi ki, onlar Azərbaycan və Ermənistan görüşünün təşkil edilməsi məsələsi ilə məşğul olsunlar, digər məsələlərə burunlarını soxmasınlar.

Rəsmi Bakı daha çox Rusiya,Türkiyə, Azərbaycan və Ermənistan dördlüyünü qəbul edir. Minsk qrupunun tükəndiyini və hər hansı kömək edə biləcəyini məqbul saymır. Buna görə də, Azərbaycanın mövqeyi başqa mövqelərdən ədalətliliyi, obyektivliyinə görə fərqlənir. Və Azərbaycan sonuna kimi də bu mövqedən çıxış edəcəkdir."

Ayzel

Siracəddin Hacı

Azərbaycanı Rusiyanın və İranın təsirindən qoruyacaq dəyərlər

Düşmənləri ancaq elimlə qorxutmaq olar

Azərbaycan müstəqil və suveren varlığını qorumaq, sıxıntılardan qurtulmaq, inkişaf etmək istəyirsə, Rusiya və İranın təsirini zərərsizləşdirmək məcburiyyətindədir. Azərbaycanı gücləndirəcək, ona müqavimət imkanı qazandıracaq, bu iki zərərli təsirdən qoruyacaq dəyərlər var:

- *ƏDALƏT* - ədalət hər kəsə, hər şeyə layiq olduğu haqqı verməkdir, dövlətin işi kimsəyə fərq qoymadan ədaləti təmin etməkdir, ədalət dövlətlə xalqı bir-birinə bağlayır, insanı, dövləti gücləndirir, milli birliyə yol açır, nəticədə, qoruma, qorunma gücü formalaşdırır, yad təsirləri zərərsizləşdirir. Xalqına ədalət verməyən hakimiyyət tikan üstündə oturmuşdur, səhradakı tək ağac kimidir, güclü külək onu devirəcək;

- *AZADLIQ* - siyasi, iqtisadi, mədəni azadlıq, bütün dövlət qurumlarının seçki ilə formalaşdırılması, insan iradəsinə sayğı, xalqın hakimiyyətin mənbəyi kimi qəbul edilməsi ən önəmli güc qaynaqlarından biridir;

- *MƏRHƏMƏT* - sosial dövlət vətəndaşına sahib çıxan, onun sıxıntılarını həll edən, əlindən tutan, göz yaşlarını silən dövlətdir, mərhəmət sevgiyə, sevgi gücə yol açır;

- *ELM* - elm insanı və dövləti zəiflədən cəhalətin düşmənidir, elmi olmayan dövlətin qorunma imkanı yoxdur, düşmənləri ancaq elmlə qorxutmaq olar, elm inkişafın, dünyada söz sahibi olmağın ana şərtidir;

- *MİLLİ BİRLİK* - onun əsası ədalət, mərhəmət, insana xidmət, insan haqlarını qorumaqdır;

- *TƏHSİL* - təhsilin vəzifəsi karyera deyil, həqiqəti tanıtmaq, sorğulayan, elmə talib olan, haqlarını bilən, kimsənin haqqını yeməyən, kimsəyə də haqqını yedirtməyən nəsil yetişdirməkdir;

- *RİFAH* - yoxsulluq parçalayır, kinə, əxlaqsızlığa, düşmənliyə səbəb olur, zənginlik birləşdirir, hüzura yol açır, milli gücə çevrilir;

- *QURANİ-KƏRİMƏ BAĞLI DİN ANLAYIŞI* - biz Azərbaycanda bu din anlayışını hakim qılsaq, altı bəladan qorunacağıq: **1)** dini cəhalət, xurafat, fanatizmdən qurtulacağıq; **2)** xurafələrin ağlımızı, vicdanımızı, iradəmizi öldürməsinin, sürüləşməyin, kölələşməyin yolunu bağlayacağıq; **3)** İranın ixrac etdiyi xurafələrə bağlı, siyasi hədəfli din anlayışı sıradan çıxacaq; **4)** ateizmin siyasi qanadı olan rusçuluğun təsir imkanı azalacaq; **5)** ərəb dünyasından gələn radikal din anlayışı çökəcək; **6)** Türkiyədən təriqətlər yolu ilə gələn zərərli din anlayışının yaşamaq imkanı olmayacaq;

- *ƏLAQƏ* - Azərbaycanın xarici siyasətinin əsasında əlaqə anlayışı olmalıdır. Azərbaycan dünya ilə doğru əlaqə qursa, güclənəcək, zərərli təsirlərdən qorunacaq;

- *GÜCLÜ ORDU* - ən müasir texnika ilə silahlanmış, elmi əsaslarla qurulmuş, mənəvi güc qazanmış ordu müstəqil, suveren inkişafın təminatıdır;

- *ETİBARLI MÜTTƏFİQLƏR* - Azərbaycan etibarlı müttəfiqlərə möhtacdır, mütləq ittifaq içində olmalıdır, Qoşulmama Hərəkatına üzv olmaq Azərbaycanın mənafeyinə uyğun deyil;

- *ÖZ MƏKANINA DAXİL OLMAQ* - Rusiyanın təsir məkanından çıxıb Azərbaycanın müstəqil, suveren, azad inkişafına təminat verən məkana daxil olmaq. Azərbaycan Rusiya və İranın təsir məkanında qalaraq öz varlığını qoruya bilməz;

Rus ekspert Paşinyana şeir yazdı: "Kasıb ermənilər isitmək üçün..."

Rusiyalı hərbi ekspert İqor Korotçenko Ermənistan Baş naziri Nikol Paşinyana ironiyalı şeir həsr edib.

Ekspert bu barədə Feysbuk səhifəsində yazıb.

Ermənistan baş nazirinin Rusiya Prezidenti ilə görüşünə münasibət bildirən Korotçenko Paşinyanın bu səfərinin ermənilərin ölkəsində əsl bayram havası yaratdığını deyib.

Onun Paşinyana həsr etdiyi şeir belədir:

Bu gün ermənilər edir bayram,
Çünki Moskvaya gəlib Paşinyan.
Rusiya ilə dost olmaq istəyir
Qaz ala bilmək üçün endirimlə.
Qabaqdan qış gəlir,
Onların isə odundan başqa
yoxdur heç nəyi,
Qaz isidəcək kasıb ermənilər".

İqor Korotçenko Rusiya lideri ilə salamlaşdıqdan sonra onu qucaqlayan Paşinyanı özündən uzaqlaşdırmağa çalışdığını söyləyib.

O, məlum görüşdə çəkilmiş fotonu paylaşaraq qeyd edib:

"Paşinyan fotoşəkildə "qardaşlıq hisləri" nümayiş etdirmək üçün özünü qucaqlaşdığı Putinin sinəsinə necə sıxmağa çalışdığını görürsünüz. Vladimir Putin isə qolunu dirsəkdən qatlayaraq Nikol Vovayeviçi özündən uzaq saxlamağa çalışır.

Paşinyan: *"Vladimir Vladimiroviç, əzizim, icazə verin sizi qucaqlayım"*.

Vladimir Putin: *"Nikol Vovayeviç, olmasa, daha yaxşıdır"*.

Müəllif: Mənsur Rəğbətoğlu

Gürcüstandakı ermənilər ayağa qaldıracağıq - Arşakyan

Gürcustan hakimiyyəti antierməni addımlar atmazdan öncə bir "Cavax"ı (Gürcüstan Respublikasının doqquz diyarından biri Cavaxeti nəzərdə tutulur – red.) yada salsınlar.



Bu fikrlə Ermənistanın siyasi şərhçisi Tevos Arşakyan çıxış edib.

Onun sözlərinə görə, "qədim erməni torpağı" olan "Cavax"ın 99.9%-ni ermənilər təşkil edir:

"Bu, bizim torpaqlardır. Tiflis ağlını başına yığmasa, biz "Cavax"dakı ermənilər ayağa qaldıracağıq. Hazırda Gürcüstan Azərbaycana və Türkiyəyə sərf edən addımlar atır, Ermənistanın maraqlarını isə ümumiyyətlə nəzərə almır. Bu, gürcülərə baha başa gələ bilər".

Qeyd edək ki, ermənilərin "özününkü" saydığı Samtskxe-Cavaxeti torpaqlarında qədimdən gürcü xalqının tərkib hissələrindən olan cavaxlar və mesxeti türkləri məskunlaşmışlar. Ermənilər bu diyarlara 1829-cu ildə rusların dəstəyi ilə köçüblər. Britaniyalı siyasi xadim M.F.Praysın yazdığına əsasən, Cavaxetiyə o vaxt 120 min erməni köçürülüb. Bu ərazilərə ikinci böyük erməni miqrasiya dalğası 1877-1878-ci illərdə baş tutub. Bu torpaqların əzəli sakinləri gürcülər və mesxeti türkləri isə 1944-cü ilə qədər Cavaxetidən deportasiya edilmişdi.

Azərbaycanlılar üçün tanış olan bir ssenari bu gün ermənilər tərəfindən gürcü xalqına yazılır.

Montazeri Paşinyana Ermənistanın "əhəmiyyət"indən danışdı

Ermənistanın baş nazir Nikol Paşinyan İrəvana gələn İranın baş prokuroru Məhəmməd Cavar Montazerini qəbul edib. Bu barədə yerli media məlumat yayıb.

Bildirilir ki, Paşinyan Ermənistanın İranla hüquq sahəsində də əməkdaşlığa böyük

önəm verdiyini bəyan edib. Baş nazirin sözlərinə görə, aidiyyəti orqanlar arasında kifayət qədər yaxın təmaslar qurulub və Montazerinin səfəri bu qarşılıqlı əlaqəyə daha da töhfə verir.

İranın baş prokuroru isə bildirib ki, ölkəsi üçün Ermənistanla münasibətlər əsas rol oynayır və bu, təkcə hüquq sahəsinə aid deyil. Onun sözlərinə görə, çoxəsrlik, mehriban qonşuluq və dostluq münasibətləri bölgədə çoxsaylı problemlərlə birgə mübarizə aparmaq üçün yaxşı bir təməldir. Montazeri deyib ki, İran tərəfi münasibətlərdə həmişə mehriban qonşuluq prinsipini rəhbər tutur.

"Türkiyə-Azərbaycan-Gürcüstan birgə təlimi kiməsə qarşı yönəlməyib"

"Tbilisidə keçirilmiş Türkiyə-Azərbaycan-Gürcüstan birgə təlimi kiməsə qarşı yönəlməyib".



Bunu Türkiyənin Gürcüstandakı səfiri Fatma Ceren Yazqan Birinci kanalın efirində yayımlanan "Müstəqil baxış" proqramına müsahibəsində deyib.

Onun sözlərinə görə, neft kəmərləri və nəqliyyat dəhlizlərinin təhlükəsizliyinin təmin edilməsinə yönəldilən təlimin məqsədi qarşılıqlı əlaqələrin yüksəldilməsindən ibarət olub. Səfir həmçinin bildirib ki, bölgədə eskalasiyadan fayda görəcək qüvvə yoxdur: **"Bizim kimi region dövlətlərinə eskalasiyadan yalnız ziyan dəyə bilər. İran da bu regionun bir hissəsidir. Buna görə də ümumi maraqlar tapmaq lazımdır".**

Qulağı pambıqlı məmurlar

Ödəmə aparatları qıt, olanlar da «xəstə»

Bilmirsən söz dəyərin itirib, yoxsa bəzi səlahiyyət sahiblərinin gönü qalındı, mətbutda işıqlandırılan problemlər həll olunmamış qalır.

Ölkədə çoxsaylı sayt və internet televiziyalar, yazılı mətbuat var və yəqin ki, onların hər biri azı bir dəfə bu problemin mövcudluğun gündəmə gətirib. Söhbət marşurt avtobuslarından istifadə edən milyonlarla vətəndaşın əziyyət çəkdiyi ödəmə aparatları-MilliÖndən gedir. Xatırlayıram ki, təkcə bizim sayt və eyni adlı qəzetdə son 5 ayda bu mövzuyla bağlı 3 yazı dərc olunub. Ancaq hələ də sərnişinlərin rahatlığını təmin etməyə məsul Bakı Nəqliyyat Agentliyindən problemin həlli istiqamətində yarım addım da atılmayıb.

Yazmışıq, bir daha şahidi olduğumuz ünvandakı duruma istinadən bildiririk ki, Mətbuat prospekti - Nəşriyyatdan 20 yanvar metrosunadək olan 22 dayanacağın (yolun hər iki istiqaməti daxil) yalnız birində ödəmə aparatı var. Əksər dayanacaqlarda isə nəinki aparat, heç sərnişinlərin istidən və yağışdan qorunması üçün dayanacaq quraşdlrılmayıb. Yol nişanındakı avtobus şəkilindən bilmək olur ki, bura dayanacaqdır. Bu natamamllqdan A. Şərifzadə küçəsi də xali deyil. Təsəvvür edin ki, ARB telekanalının qarşısındakı dayanacaqlar da daxil, Nəşriyyatın həndəvərindəki 5 duracacqda cəmi bir MilliÖn aparatı var ki, o da saatlarla sistem pozğunluğundan "xəstə" olur. İnsanlar əllərində pul, ətrafdakılardan xahiş edir ki, avtobusa minməyə ona yardımçı olsun. Cibində qəpik pulu olmayan və bir az abırlılar isə gah ödəmə aparatının başına fırlanır ki, görsün "xəstə" nə vaxt özünə gələcək, yaxud güc verir ayaqlarına MilliÖn axtarmağa.

İnsanlar bu sayaq süni problemlərdən əziyyət çəkir, sahəyə cavabdeh Bakı Nəqliyyat Afentliyi isə işini ancaq gündə bir dəfə aparatı "sağmaqla" bitmiş hesab edir. Pul şirin şeydi axı, hər gün əlləri ona dəyməsə həyacandan sarılıq xəstəliyi taparlar. Göründüyü kimi biz burda ancaq paytaxtın iki küçəsindən bəhs etdik, mərkəzdən kənar yerlərdə nələr yaşandığını isə sadəcə təsəvvür etmək olar.

Məlum olduğu kimi bu gün sərnişindaşımada istifadə edilən xətt avtobusların minumum 90 faizində ödəniş kartla aparılır. Bəli, bu xidmət sərnişinin rahatlığı üçün yaxşıdır. Amma bir haldakı bu sistemə keçilib aidiyyəti dövlət qurumlarının, ilk növbədə BNA-nın borcudur ki, çatışmazlıqları, vətəndaşı narazı salan problemləri təxirəsalmadan həll etsin.

Səma

Azercell müştərilərə qarşı soyğunçuluq edir

Dərə xəlvət, Azercell bəy

Azərbaycanda fəaliyyət göstərən mobil rabitə şirkətlərindən şikayətlər həmişə olub. Lakin son bir neçə ildə belə şikayətlərin sayı fantastik şəkildə artlr. Bunun əsas səbəbi də, məhz inhisardır. Ölkədə 3 mobil rabitə şirkəti fəaliyyət göstərsə də, onlardan ikisi "Azerfon" (Nar) və "Bakcell" (Cin) bir sahibkara məxsusdur. Bir ölkədə cəmi iki mobil rabitə şirkətinin fəaliyyəti zamanı isə kommersiya fəaliyyəti zamanı sindikat razılaşmaların baş verməsi qaçılmazdır. Ona görə də, bu mobil rabitə şirkətlərinin bazarı itirmək qorxusu yoxdur. Bu səbəbdən də onları müştəri qazanmaq deyil, yalnız daha çox mənfəət əldə etmək düşündürür. Nəticədə isə müştərilərin hüquqları kobud şəkildə pozulur.

Belə şikayətlərdən birinə Feyzbuk sosial şəbəkəsində rast gəldik. Feyzbuk istifadəçisi İntiqam Əsədov yazır: *"Hörmətli Azercell sirkətinin rəhbərliyi, 8 oktyabr 2021-ci il, saat təxminən 14.10-da məktəbdən evə gəldim, Evdə işlətdiyimiz telefonu açdiqda mənə dalbadal 4 mesaj gəldi. Mesajlarda yazıldı ki, son istifadə1,2 azn, son istifade 2 azn, 2,5 azn və s. Bu minvalla bir dəqiqə ərzində 49 manat təşkil edən balansimdan 9 manat silindi. Qəribə burasidir ki, mesaj bölməsindən həmin mesajlar dərhal silindi. Mesajları oxumağa belə, güclə macal tapdim.*

Bu barədə saat 14.52-də Azercell-in müştəri xidmətinə məlumat verdim. Kişi səsilə danışan operator mənə dedi ki, 1 dəqiqə gözləyin, indi sizə məlumat verərik".

İntiqam Əsgərov əsəbi şəkildə yazdığı statusunda bildirir ki o, heç bir reklam və digər kampaniyalara qoşulmayıb - bir neçə ay əvvəl bu xüsusda da onun bu mobil operatorla dartışması olub və bütün kampaniyalar bağlanılıb. Onun sözlərinə görə, saatlarla cavab gözləsə də, "Azercell" müştəri xidmətindən heç bir cavab ala bilməyib.

Məsələ ilə bağlı Azercell Telekomun mətbuat xidməti ilə əlaqə saxladıq. Şirkətdən bildirdilər ki, abonentlərə qarşı mobil dələduzluq törədilibsə, bu faktla bağlı hüquq-mühafizə orqanlarına müraciət edilə bilər: *"Mobil rabitə operatoru dələduzların hərəkətlərinə görə məsuliyyət daşımır və onları hüquqazidd hərəkətlərlərinə görə məsuliyyətə cəlb edilməsi mümkün deyil.*

Son zamanlar Azercell şəbəkəsi istiqamətində beynəlxalq mobil dələduzların fəallaşmasını nəzərə alaraq abunəçilərimizə diqqətli olmağı tövsiyyə edirik. Bununla əlaqədar tərəfimizdən bütun müvafiq tədbirlər görülməkdədir. Şübhəli məzmunlu SMS-lərə geri dönüş etməməyi, həmin SMS-də göstərilən beynəlxalq nömrələrə zəng etməməyi tövsiyyə edirik. Əks halda, nömrənizin hesabında böyük məbləğdə xərclər yarana bilər".

İşçiləri minlərlə manat maaş alan, pristijli həyat yaşayan Azercell şirkətinin əlində çox samballı alibisi var. Bu bəhanə ilə gün ərzində milyonlarla manat pul qazana bilərlər, elə qazanırlar da. Hesabında yüksək məbləğdə vəsait olan abunəçilərin sayı bəlkə də yüz minlərlədir. Yüz min abunəçinin hərəsindən bir manat çırpışdırsalar bu yüz min manat "mənfəət" deməkdir. Mobil rabitə sisteminin incəliklərini bilməyən mustəri zəng edəndə də, ağzını dağa dirəyirlər ki, bəs bu xarici dələduzların işidi. Ya da məsləhət verirlər ki, gedin hüquq-mühafizə orqanlarına müraciət edin. Bilirlər ki, heç kim 5-10 manatdan ötrü hüquq-mühafizə orqanlarına müraciət etməyəcək.

Azərbaycanda mobil rabitə sahəsində vəziyyət belədir, necə deyərlər, dərə xəlvət, tülkü (Azercell) bəy, kefləri nə istəyir, onu da edirlər.

P.S. Sonradan bəlli oldu ki, İntiqam müəllim ağdamlıdır. Deyirəm, Azercell Telekom qurd ürəyi yeyib, ağdamlıya-filana baxmır, ucdantutma bütün ölkə vətəndaşlarına kələk gəlir!

Akif Nəsirli

Akif Nəsirli

Biz nə vaxta qədər İran ayətullahlarına biət edəcəyik?

Azərbaycanlılar hər il İrana milyonlarla dollar xüms göndərir

İllər öncə yazmışdıq ki, İranın Azərbaycan vətəndaşlarını dini bağlarla özünə bağlaması, onların hissləri ilə oynaması, yalnız vətəndaşlarımız üçün deyil, həm də dövlətimiz üçün yaxşı perspektiv vəd etmir. Amma bu SOS siqnallarına baxmayaraq, Azərbaycan hökuməti, yalnız Nardaranda uğursuz bir polis əməliyyatı keçirməklə kifayətləndi.

Əslində isə Azərbaycanda zərərli İran faktorunu aradan qaldırmaq bir günlük, bir neçə saatlıq əməliyyatın işi deyil. Buna illər, bəlkə də onilliklər lazımdır. Lakin biz bu istiqamətdə demək olar ki, heç bir addım atmadıq. Ona görə də Azərbaycanın inanclı vətəndaşlarının özünü şiə hesab edən hissəsi, hər il İrana milyonlarla dollar xüms göndərir, İran ayətullahlarına biət edir, onların fətvası ilə hərəkət edir. Vətəndaş bizim olsa da, onu İran dini liderləri idarə edir, desək yanılmarıq.

Siz təsəvvür edin ki, bütün dünyada mübarək Ramazan ayının başlanması və bitməsini elmi şəkildə müəyyən etsələr də, Azərbaycan şiələri, yalnız özlərinin inandığı İran ayətullahının fətvasına gözləyir.

Əvvəldən də bəlli idi ki, İran iqtidarı dindən sadəcə olaraq, öz hakimiyyətini qorumaq üçün istifadə edir. Bu son bir ildə çılpaqlığı ilə, ağlı başında olan, dünyanın gedişatını bilən hər bir vətəndaşımız üçün aydın oldu. Biz müsəlman olduğumuz halda, İran ermənіyə dəstək verdi. Bununla belə, hazırda İrana fanatiklik edən mollalarımız və onların ətrafında birləşən kifayət qədər vətəndaşlarımız var.

Azərbaycan hökuməti, məhz bu məsələdən əndişələnməli, İranın ölkəmizdə basdırdığı "minalar"dan cəmiyyəti təmizləməlidir. İranın Azərbaycanda basdırdığı "minalar" ermənilərin işğaldan azad edilmiş ərazilərimizdə basdırdığı minalardan daha təhlükəlidir.

Azərbaycan hökuməti bu bəladan qurtulmaq üçün İran ayətullahlarına biət edən ölkə vətəndaşlarını məsuliyyətə cəlb etməli, hər hansı bir əməliyyat aparmalı deyil.

Birinci növbədə dini maarifləndirmə işi gücləndirilməlidir. İnanclı insanlarımıza izah etməliyik ki, İslam dini, yalnız İran ayətullahlarının dediklərindən ibarət deyil. Onların qəsd etdiklərinin əksəriyyəti İran iqtidarının daha uzun müddət ayaqda qalmasına hesablanıb. Bu məsələ faktlarla aydın şəkildə şiə məscidlərinin camaatına izah edilməlidir. Amma buna qədər həqiqi İslam dinini Azərbaycanda mükəmməl bilən mütəxəssislərə ehtiyac var. Məsələnin açar məqamı da, məhz buradadır.

Dünya təcrübəsi göstərir ki, bütün dövlətlərdə din siyasətə mütləq qarışıb. Və ya əksinə, siyasət dinə nüfuz edib. Ona görə də, istənilən ölkədə yetişən din xadimi istər-istəməz həmin dövlətin siyasi mövqeyindən çıxış edən idealogiya ilə yüklənir. Bu səbəbdən də onlar yetişdikləri dövlətin siyasi mövqeyindən çıxıs edir. Biz din xadimlərinin İrandan deyil, Səudiyyə Ərəbistanında dəvət etsək, gələn din xadimi dini məsələlərə həmin dövlətin siyasi mövqeyindən baxacaq. Ona görə də, din xadimləri hər bir ölkənin daxilində yetişməlidir. Bunun üçün isə ölkədə dini məktəb, dini institut yaradılmalıdır. Bu işdə dinlə elmi şəkildə məşğul olan yerli mütəxəssislərin potensialından istifadə edilə bilər.

Artıq Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsindən 30 il keçir. Bu o deməkdir ki, biz müstəqillik qazanandan sonra doğulan uşaqların artıq 30 yaşı var. Bu müddət ərzində biz birinci nəsil din xadimlərinin artıq yetişdirmiş olmalı idik.

Məsələn, bəlkə də Ziya Bünyadov yaşasaydı öz gücünə, artıq Azərbaycanın ayətullahı səviyyəsinə qalxa bilərdi. Əgər müstəqil, heç bir dövlət tərəfindən təsir altını alınmayan, savadlı din xadimləri axtaraıaq, yəqin ki, ölkədə belələrini kifayət edəcək sayda tapmaq mümkündür.

Bu işdə Azərbaycanla daha yaxın əməkdaşlıq və tərəfdaşlıq edən müsəlman ölkələrinin mütəxəssislərindən də istifadə etmək olar. Məsələ, Azərbaycan üçün ən münasib olan ölkə Türkiyə sayıla bilər. Düzdür, Türkiyədə əhalinin əksəriyyəti sünnə, Azərbaycan isə şiə məzhəbinə mənsubdur. Bu uyğunsuzluq ilk dövrlərdə muəyyən problemlər yarada bilər, amma zaman axarında bütün problemlər aradan qalxacaq, ölkənin vahid dini-siyasi mövqeyi formalaşacaq.

Bu xüsusda bir məsələni də qeyd edək ki, Türkiyənin dini liderləri heç də şiə məzhəbinə qarşı aqressiv mövqedə deyildir.

Belə ki, bir neçə il əvvəl, Heydər məscidinin açılışından dərhal sonra adını unutduğum bir türk müştəhid həmin məscidin ziyarətinə gəlmişdi. Məscidin axundu bir neçə dəfə təkrar müştəhidə sual verdi ki, şeyx, siz hansı məzhəbə məxsussunuz. Müştəhid axundun israrına rəğmən bildirdi ki, mən Həzrəti Muhəmməd Peyğəmbərin (s.a.s.) məzhəbindənəm. Axund təəccüblə buyurdu ki, Peyğəmbərin məzhəbi yoxdur axı?

O zaman türk ayətullah gülümsəyərək dedi ki, yavaş-yavaş verdiyin suala özün cavab verirsən...

Sonda nəticə olaraq qeyd edək ki, Azərbaycan ölkə daxilində başqa dövlət tərəfindən təsir altına alınmayan din xadimləri yetişdirməlidir ki, vətəndaşları başqa dövlətlərin siyasi-ideoloji təsiri altında olan ayətullahlara biət etməsin. Bunun üçün bizə xeyli zaman gərəkir. Ona baxmayaraq, biz bu istiqamətdə addımlar atmalı, tezliklə Azərbaycanın din xadimlərini yetişdirməliyik. Bunun üçün artıq ölkədə potensial da var. Belə ki, həm savadlı, məktəb qura biləcək din xadimlərimiz, həm də bizə dəstək verə biləcək Türkiyə kimi qardaşımız var.

İnternet əsiri olan gənclik

Zərəri xeyrindən çox

Dünyanın düzəni çox dəyişib. İnsanlar da 30-40-50 il əvvəlki insanlar deyillər, sanki tamamilə başqa bir planetdən gəliblər. Əslində, ordan gələnləri mən də görməmişəm, başqa planetə getmək şansım da olmayıb. Deyilənlərdən, oxuduqlarımdan, bəzi alim və yazıçılırın təxəyyülünün məhsulu olan kitablardan və filmlərdən əxz etdiyim odur ki, onlar öz inkişaf səviyyələrinə görə (söhbət heç şübhəsiz ki, elmi-texniki və texnoloji inkişafdan gedir) bizi yüz, bəlkə də iki yüz il qabaqlayırlar. Bu tərəqqi həm də onların görünüşlərinə belə, təsirsiz ötüşməyib. Onların zahiri görünüşləri, düşüncələri, hərəkətləri də bizdən, yəni Yer planetinin insanlarından çox fərqlənir.

Bu yazını yazmaqda məqsədim heç də sizləri yadplanetlilərlə tanış etmək deyil. Əsas məsələ odur ki, biz də son 30 ildə çox dəyişmişik. Texnika və texnologiyalar inkişaf etdikcə, biz də sanki, insani keyfiyyətləri bir kənara qoyub, robotlaşmağa başlamışıq.

Düşüncələrimiz, ideyalarımız, biri-birimizə münasibətimiz dəyişir, təəssüflər olsun ki, müsbətə yox, mənfiyə doğru.

Son illərin müşahidələri onu deməyə əsas verir ki, bu gün insanlar yaşamağın ən əsas qayəsini maddi sərvət torlamaqda görürlər. Milli-mənəvi dəyərlər belə, pulu gördükdə əriməyə, zəifləməyə başlayır. Heç kim, bir fərd olaraq özünü milli-mənəvi dəyərlərin qorunub saxlanmasında məsul hiss etmir. Biz torlum şəkildə olduğumuz zaman birlikdən, milli və mənəvi dəyərlərimizin qorunmasından danışırıq. Söhbət gəlib fərdləşəndə isə, *"mənə başqalarından çox lazımdır, qoy imkan düşmüşkən, öz problemlərimi həll edim, vaxt qalsa, başqa işlər barədə də düşünərəm"*, təxəyyülü ilə yaşayırıq.

Bu yanaşmanın formalaşmasında, ölkəmizdə mövcud olan rüşvət, korrupsiya, qohumbazlıq və tayfabazlıq kimi amillər heç də az rol oynamır. Bu amillərin həyatımızın bütün sahələrinə nüfuz etməsi, heç şübhəsiz ki, gənclərin də psixoloji cəhətdən fərdiyyəçiliyə meyillənməsinə stimul yaradır. Bu həm də, gəncləri milli-mənəvi dəyərlərdən uzaqlaşmasına, yeni fərdiyyəçilik düşüncəsi ilə daha çox pul qazanmaq və onu necə gəldi xərcləmək kimi, yanlış fikirlərə gətirib çıxarır. Ataların: *"Hay-haynan gələn, vay-vayla gedər"* düşüncəsi, müasir insanların bir çoxu üçün heç bir məna kəsb etmir. Onlar yalnız çox qazanıb, çox xərcləmək istəyirlər. Necə qazanıb, necə xərcləməyin özü də, onlar üçün maraqlı deyil. Bəziləri isə çox çətinliklə qazandıqlarını, elə boş şeylərə xərcləyirlər ki, hətta özləri də bir müddət sonra baş verənləri anlaya bilmirlər.

Mənə belə gəlir ki, bunu insanın şüuraltı psixoloji halı kimi qəbul etmək lazımdır.

Məsələn, insan gecə-gündüz işləyir və bacardıqca çox pul, var-dövlət, sərvət əldə etmək üçün sağlamlığını qurban verir. Sonra da sağlamlığını bərpa etmək üçün qazandıqlarının hamısını həkimlərə, dava-dərmana xərcləyir. Burada hansısa bir məntiq görürsünüzmü? Yoxdur!

Bir başqası əlinə keçən fürsətdən istifadə edərək xalqı, dövləti çapıb, talayır milyonlarla ölçülən sərvət toplayır, günün birində ifşa olur, taladıqlarının hamısını əlindən alıb, atırlar zindana, yanındakına dərs olurmu? Olmur!

Bax, beləcə həyat davam edir.

Amma elə insanlar da var ki, onlar üçün böyüyə hörmət, kiçiyə mərhəmət, Allahın verdiyinə şükranlıq, bütün maldan, dövlətdən, sərvətdən daha üstündür. Bu insanlar hər şeyə qane olmaqla, həm də özlərini hər tərəfdən onları əhatə edən iqtisadi-biznesin təcavüzündən qoruyurlar.

Bu gün əsasən də gənclərin psixologiyasına təcavüz edən şou-biznes mafiyasının təbliğat maşını işini elə qurur ki, onun təsiri altına düşənlər bir daha normal həyata qayıda bilmirlər. Gənclərin ətrafında qurulan bu toru dağıtmaq çox çətin olur, çünki onlar artıq özlərini cəmiyyətdən təcrid edir və ancaq "kumir"lərinin yolunu getmək üçün istənilən bir göstərişi yerinə yetirməyə hazır olurlar.

Bu gün internet üzərindən həyata keçirilən bütün reklam kampaniyaları da, məhz gənclərin zombiləşməsinə xidmət edir. Bu da onu deməyə əsas verir ki, internet əsirinə çevrilən insanların bu əsarətdən qurtulmaları çox çətin olur, buna görə də həm dövlət, həm də cəmiyyət bu insanları nəzarətdə saxlamalı və onların düşdükləri bu çamurdan çıxmalarına yardım etməlidir.

İnformasiya Kommunikasiya Texnologiyaları (İKT) inkişaf etdikcə, internetin təsiri altına düşən və cəmiyyətdən təcrid olanların sayı da artır. Bu bir daha onu deməyə əsas verir ki, internet asılılığına düşən insanlar, cəmiyyətə hansısa yeniliklər gətirmir, əksinə cəmiyyət üçün ciddi təhlükəyə çevrilirlər.

Çünki, bu gün internet və sosial şəbəkələr vasitəsi ilə insanların, əsasən də gənclərin beyinlərinin "yuyulması" və oraya tamamilə bizə yad olan dəyərlərin "yüklənmə"si prosesi gedir.

Məhz bu "yuyulma"nın və "yüklənmə"nin nəticəsi idi ki, yüzlərlə Azərbaysan gəncinin sorağı İraqda, Suriyada, Əfqanıstanda və digər "savaş meydanları"ndan gəlirdi.

44 günlük Vətən Müharibəsi bir daha sübut etdi ki, ölkəmizə, dövlətimizə qarşı törədilən bütün naqisliklərə və təbliğata baxmayaraq, Azərbaycan gəncliyi daim ürəyində, qanında Vətən, Millət, Dövlət sevgisi daşıyır. Vətən, Millət və Dövlət uğrunda şəhid olmağı hər şeydən üstün tutur. Bu ondan irəli gəlir ki, xalqımız minillər boyu bu dəyərləri nəsildən- nəsillər ötürərək yaşadıb və bu gün də yaşatmağa çalışır.

Amma yaddan çıxarmaq lazım deyil ki, bizə məxsus olan dəyərlərimizi müxtəlif yollarla qloballaşdırmaq istəyən qüvvələr də az deyil ətrafımızda. Onların qarşıya qoyduqları məqsəd, heç də Azərbaycan gəncliyini maarifləndirmək deyil. Tam əksinə, məqsəd gəncliyi internetdən asılı vəziyyətə salmaqla, onları istədikləri kimi idarə etməkdir.

Bunun qarşısını almaq üçün dövlət səviyyəsində xüsusi layihələr hazırlanaraq həyata keçirilməlidir.

Bu istiqamətdə bir çox ölkələrdə artıq işlərə başlanılıb. Bu gün hər bir dövlət öz mədəniyyətini, incəsənətini, milli-mənəvi dəyərlərini yüksək tuturaq, həm də bütövlükdə mövcudluğunu qorumağa çalışır. Məsələn, bu yaxınlarda İspaniyanın baş naziri Pedro Sançes bəyan edib ki, 2022-ci ilin dövlət büdcəsindən gənclər uçun "Mədəniyyət çeki" tətbiq etmək niyyətindədir. Çek yetkinlik yaşına çatan bütün gənclərə təqdim ediləcək. Gənclər və yeniyetmələr 400 avroluq çekdən kitabların alınmasına, yaxud bədii fəaliyyətin hər hansı bir növü üçün xərcləyə biləcəklər. Onu da qeyd edək ki, belə bir layihə artıq Fransada və İtaliyida həyata vəsiqə adıb. Bu layihələrin məqsədi gəncləri mədəniyyətə və incəsənətə cəlb etməkdir. Rusiya da 14 yaşından, 22 yaşına kimi gənclər və yeniyetmələr üçün "Puşkin kartı" adlanan bir layihənin həyata keçirilməsinə start verib.

Gənclərə teatr, konsert salonları, muzey və digər mədəniyyət və incəsənət tədbirlərinə pulsuz qatılmaq imkanı verən bu layihə böyük məmnunluqla qarşılınıb. Başlanğıc ili kimi hazırda 3000 rubl dəyərində olan bu kartların gələn ildən dəyərinin 5000 rubl (təxminən 120 manat) olacağı bildirilir. Layihə təşkilatçıları hesab edir ki, bu layihə 13 milyondan çox gənci əhatə edəcək və onların mədəniyyət və incəsənət hadisələrindən kənarda qalmamasına yardım edəcək.

Bu gün gəncləri daha çox maraqlandıran, dövlətə və millətə gərəkli insanlar kimi formalaşmalarına yardım edəcək bütün təkliflər dövlət tərəfindən dəstəklənməlidir ki, onlar bu dəstəyi hiss etsinlər. Bunu kimlərinsə, öhdəsinə buraxmaq olmaz. Çünki, müstəqilliyimizin ilk illərində, ölkəmizi bürüyən əcnəbi xeyriyyə qurumlarının burada hansı oyunlardan çıxdıqlarını gördük. 2003-cü ildə İlham Əliyevin prezident seçilməsi ilə bu qurumlara qarşı məqsədyönlu şəkildə mübarizəyə başlandı və bu mübarizə bizim qələbəmizlə başa çatdı. Bu gün də onlar müxtəlif yollarla ölkəmizə təsir imkanları axtarırlar. Qlobal internet şəbəkəsi formasında.

Məlumdur ki, dünyəvi bir dövlət olaraq biz bu şəbəkənin fəaliyyətinin qarşısını ala bilmərik. Amma gəncliyimizi bu təsirdən qorumaq imkanlarımız var və biz o imkanlardan istifadə etməliyik. Yeniyetmələrin və gənclərin asudə vaxtlarının səmərəli keçirmələri üçün geniş imkanlar açılmalıdır ki, onlar digər cəlbedici tərəflərə və təkliflərə meyl etməsinlər. Çünki bizim boş buraxdığımız hər bir noqtədən istifadə etməyə çalışanlar var ətrafımızda.

Son nəticə olaraq qeyd etmək istərdim ki, insanlar arasında mənəvi gərginliyin yaranması, psixoloji pozuntular da, məhz bu boşluqlardan yaranır. Bu boşluqları özümüz doldurmalıyıq ki, başqaları oraya müdaxilə edə bilməsinlər.

Gəncliyi özümüz qoruyaq ki, onlar da bizi qorusunlar.

Yusif Seyid

Boşluqları özümüz dolduraq ki, başqaları ora müdaxilə edə bilməsin

Pakistanlı səfir "ASAN Könüllülərinin Diplomatiya Günləri"ndə

"Bakı Bəyannaməsi"nin əhəmiyyətindən bəhs edib

"ASAN Könüllüləri" Təşkilatının təşkilatçılığı, Bakı Ali Neft Məktəbinin və "Diplomatiya Könüllüləri"nin tərəfdaşlığı ilə 44 günlük Vətən müharibəsinə həsr olunmuş "ASAN Könüllülərinin Diplomatiya Günləri" layihəsi çərçivəsində rəsmilərlə görüşlər davam edir.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən bildiriblər ki, növbəti görüş Pakistan İslam Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Bilal Haye ilə keçirilib.

"Azərbaycan - Pakistan münasibətləri" mövzusunda təşkil olunan görüşdə 44 günlük Vətən müharibəsində Azərbaycanın haqlı mövqeyinə dəstək olan ölkələr arasında Pakistan İslam Respublikasının olmasının heç də təsadüfi olmadığını vurğulayan səfir ölkələrimiz arasındakı dostluq və qardaşlıq əlaqələrinin tarixi haqqında layihə iştirakçılarına geniş məlumat verib.

Bundan əlavə, səfir 2021-ci ilin iyul ayında Azərbaycan, Türkiyə və Pakistan parlamentlərinin sədrləri tərəfindən imzalanmış "Bakı Bəyannaməsi"nin əhəmiyyətindən bəhs edib. Sonda iştirakçıların sualları cavablandırılıb.

Azərbaycanda ən güclü biznes sahəsi - Əczaçılıq

Yoxsa, dərman yeyib yaşayan millət?

Azərbaycanda ən güclü biznes sahəsi əczaçılıqdır. Bazar günü çox maraqlı, eyni zamanda qəribə bir mənzərəni müşahidə etdim. Belə bir məqamda insanın əlində kamera ola və bütün bu mənzərəni vidioya çəkə. Mənim isə bu sahədə bilgim az olduğundan, sadəcə yazmaqla diqqətinizi ciddi bir məqama çəkmək istəyirəm. Belə ki, bir məkanda bir neçə market, uşaqlar və böyüklər üçün pal-paltar, ayaqqabı, cocuqlar üçün oyuncaqlar, məktəblilər üçün dərc ləvazimatları maqazaları və Aptek. Deyə bilərsiniz ki, nə olsun, belə məkanlar Bakının bir çox yerlərində var. Amma və lakin!

Maraqlısı odur ki, bütün bu ticarət məkanlarında sükunət müşahidə olunduğu halda, aptekdə adam əlindən tərpənmək mümkün deyildi. Belə çıxır ki, Azərbaycan xalqı qazandıqlarının böyük hissəsini həkim və dərmanlara xərclədiyi üçün bir müddət sonra acından günorta duracaq, Adəm və Həvva qiyafəsinidə dünya seyrinə çıxacaq ki, biz də varıq. Mənim üçün çox maraqlıdır, görəsən bu məmləkətdə bunun səbəbini bilən bir Allah bəndəsi var? Azərbaycan axı, həm də alimlər ölkəsidir, məmurları alim, deputatları alim, icra başçıları, JEK (indi MKİS deyirlər) müdirləri alim, görəsən onlar bu məsələləri nə üçün araşdırmırlar? Araşdırsaydılar pis olmazdı, çünki həkimlərin başı pul saymağa qarışdığından, bu sahə lap başlı-başına qalıb. Son gördüklərim mənim üçün çox maraqlı müşahidə oldu. Artıq iki gündür ki, hara gedirəmsə, maqaza, dükan və apteklər arasında müqayisələr aparıram. Gəldiyim son qənaət budur ki, Azərbaycanda ən pullu biznes-əczaçılıqdır! Haydı, hamı dərman satmağa!

Yusif

Masazır duz gölünün halətinə bax!

Allahın qəzəbinə düçar olanlar...

Masazır duz gölünün quruması, insanlar arasında narahatlıq yaradıb. Son zamanlar, Masazır duz gölünün quruması barədə, müxtəlif mülahizələr söylənilir, əslində onların nə dərəcədə araşdırıldığı, bu rəylərin haradan qaynaqlandığı da, burada yaşayan insanları əsla maraqlandırmır, çünki onların böyük əksəriyyətinin reallığı əks etdirmədiyini düşünürlər.

Fakt isə odur ki, Masazır duz gölü quruyur. Bu insanlar, onların babaları yüz illərdir Allahın onlara bəxş etdiyi bu nemətdən yararlanaraq öz yaşamlarını təmin ediblər. Masazır duz gölündən çıxarılan duz, hələ qədim zamanlardan Abşeronun digər kəndlərində çıxarılan nöyütlə (neft-mazut) ölkəmizin hər tərəfinə daşınıb və insanlar bundan yararlanıblar.

Eynən nağıllardakı div kimi, günlərin birində bir qoluzorlu peyda olur, gölün hər tərəfini hasarlayır, orada bir zavod tikir, başlayır pul qazanmağa. Burada yaşayan insanlar, artıq nə

gölün şəfasından, nə də qazancından yararlana bilmirlər. İllər keçir «div» hasarı sökmür, duzu da ata malı kimi özü satır. Yaddan çıxarır ki, Allah bu neməti təkcə onun üçün yox, insanlar üçün şəfa və dolanışıq mənbəyi kimi yaradıb. Allahtəalə görür ki, bu «div» öz əməlindən əl şəkmir, qərar verir ki, sən insanlardan güclü olsan da, məndən güclü ola bilməzsən və başlayır gölü qurutmağa.

İki gün əvvəl gördüklərimi sizə də təqdim edirəm. Artıq gölün böyük hissəsi səhraya çevrilib. Allahın qəzəbinə gələnlər də yəqin ki, oradan baş götürüb gedəcəklər gəldikləri yerə.

Seyid

Ad dəyişir, mahiyyət dəyişmir

Xələflər sələflərindən fərqlənmir

Azərbaycan öz inkişaf strategiyası baxımından, elə ölkələr siyahısında yer alır ki, burada bütün işlər görüntü və hesabat xarakteri daşıyır. Bu işlərin bir səmərə verib-verməyəcəyi isa o qədər də əhəmiyyətli deyil.

Bu baxımdan, bir nəfər üçün yaradılan qurum və strukturlar daha ağır nəticə və fəsadlara səbəb olur. Bunun ağırısını isə xalq şəkir. Bu qurum, yaxud strukturların ömrü isə həmin şəxs vəzifədən çıxarılana qədər olur. Ondan sonra ya ləğv olunur, ya da başqa bir quruma birləşdirilir. Mahiyyət etibarı ilə isə heç nə dəyişmir. Mən hamısının adlarını sadalamaq istəmirəm, nümynə üçün deyim: Dövlət Sosial Müdafiə Fondu, şəxsən Səlim Müslümov üçün yaradılmışdı.O, Əmək və Əhalinin Sosial Müdafiəsi Naziri vəzifəsinə təyinat aldıqdan sonra, Fond həmin nazirliyin bir strukturu kimi fəaliyyətini davam etdirdi. Xalqa və dövlətə «misilsiz xidmətlərinə görə», hazırda «layir olduğu sanatoriyada» istirahət edən Səlim Müslümov bu qurumlarda elə bir rüşvət labirinti qurub ki, Sahil Babayev neçə illərdir həmin labirintdən çıxa bilmir.

İkinci bir əvəzolunmaz persona sabiq nəqliyyat naziri Ziya Məmmədov. O, görəvindən alındıqdan sonra bu nazirlik, ümumiyyətlə pərən-pərən oldu. Nazirliyin səlahiyyətləri müxtəlif qurumlar arasında bölündü və nəhayət, Rabitə, Həqliyyat və Yüksək Texnologiyalar Nazirliyi yaradılaraq qalan səlahiyyətlər də ona verildi. Amma, heç kim bu qurumlarda hansısa, müsbət dəyişikliklərin baş verdiyini hiss etmədi.

Bu gün hansısa səbəbdən Rabitə, Həqliyyat və Yüksək Texnologiyalar Nazirliyinin adını dəyişirlər. Bundan sonra həmin nazirlik Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi adlanacaq. Maraqlıdır, bununla həmin nazirliyin strukturuna aid olan sahələrdə müsbət dəyişikliklər müşahidə edə biləcəyikmi? Bu sualın da cavabını siz verin. Onlar onsuzda susmağa üstünlük verəcəklər, çünki deyəcəkləri bir şey yoxdur. Azərbaycan xalqı isə artıq nağıllara inanmır!

Y.Seyid

Dünyada müşahidə olunan tendensiyalar virusla mübarizə üsullarının təkmilləşdirilməsini və qabaqcıl tədbirlərin görülməsini zəruri edir. Təbii ki, bu prosesdə hər bir vətəndaş sosial məsuliyyət daşıyır. Xüsusilə vaksinasiyada iştirak vətəndaş məsuliyyətinin əsas göstəricisidir. Dünyada vaksin millətçiliyi, eləcə də vaksinin əlçatanlığında müşahidə olunan çətinliklərə rəğmən bu gün ölkəmizdə əhalinin 4 növ vaksin seçimi var.

Könül Nurullayeva:

"Vaksinasiyada iştirak vətəndaş məsuliyyətinin ayrılmaz göstəricisidir"

Buster dozası ağırlaşmadan daha çox qoruyur

"Sinovak", "AstraZeneca", "Pfizer" və "Sputnik" vaksinləri ilə 2 milyon dozadan artıq peyvənd istifadə edilib. Mütəxəssislər də israrla bildirir ki, bu vaksinlərin hər biri effektiv və təhlükəsizdir. Bu gün isə dünyada müşahidə olunan tendensiya onu göstərir ki, pandemiyanın fəsadları bütün yaşlarda olan insanlara təsir edə bilər. COVİD-19 virusuna gənc və sağlam insanlar da yoluxa bilər. Gənclər xəstəliyi simptomsuz və yüngül keçirsələr də, ətraflarında olan digər insanları yoluxdura bilərlər. Vaksinasiya olunmayan şəxslərin kütləvi tədbirlərdə iştirakı insanların həyatını təhlükə altına qoyur. Bu isə hər bir vətəndaşdan məsələyə daha ciddi yanaşmanı tələb edir. Bu gün mütəxəssislər vaksinin qüvvətləndirici üçüncü - Buster dozasının əhəmiyyəti barədə də artıq ictimaiyyətə məlumat veriblər. Peyvənddən bir müddət sonra maksimuma çatan qorunma səviyyəsi vaxt keçdikcə zəifləyə bilər. Buster doza immunitet reaksiyasını yenidən gücləndirməyi və bununla da peyvəndin effektivliyini artırmağı hədəfləyir. Çünki hər iki doza vaksinlə peyvəndlənən şəxslərin koronavirusun yeni ştammlarına yoluxma riski var. Yoluxma ilə bağlı beynəlxalq statistika artıq təkrar vaksinasiya olunmanın zəruriliyini təsdiqləyir. Ona görə də buster dozasının alınması sürətləndirilməlidir. Təbii ki, ilk növbədə yüksək risk qrupuna daxil olunan insanlar - tibb işçiləri, yaşı 50-dən yuxarı olan şəxslər, autoimmun xəstəlikləri olan, xroniki xəstəliyi olan şəxslər üçün 3-cü doza məqsədəuyğun hesab olunur və bu kateqoriya insanlar üçün əhəmiyyəti daha çoxdur.

Beynəlxalq təcrübəyə diqqət yetirsək, müxtəlif xarici ölkələrdə də artıq buster dozasının vurulmasına başlanılıb. Tibb mütəxəssisləri də bildirir ki, üçüncü doza virusla mübarizə aparan anticismləri əvvəlki dozalardan üç dəfə artıq gücləndirir. İsrailin Səhiyyə Nazirliyinin məlumatına görə, buster dozasının qəbulundan sonra yan təsirlər nadir hallarda müşahidə olunub, onlar da birinci və ikinci inyeksiyadan sonra üzə çıxan əlamətlərdən fərqlənmir. ABŞ Xəstəliklərin Profilaktikası və Kontrolu Mərkəzlərinin və İngiltərənin Milli Səhiyyə Xidmətinin məlumatlarına əsasən, buster dozasının istifadəsi ilkin dozadan 6 ay keçmiş risk qruplarına aid olan şəxslər üçün əhəmiyyətlidir. Təsadüfi deyil ki, buster dozası almış şəxslərdə yoluxmadan qorunma 11, ağırlaşmalardan qorunma isə 19 dəfə artıb. "Delta" ştammına nəzərən təcrübə də göstərir ki, bəzi hallarda yeni variantlara qarşı qorumanı gücləndirmək üçün peyvəndin əvvəlkindən fərqli növü tətbiq oluna bilər. Bu mənada vətəndaşlar peyvəndin sayından daha çox, onun nəticəsinə, özünün, yaxınlarının, bütövlükdə cəmiyyətin təhlükəsizliyinin təmin olunmasına daha çox önəm verməlidir. Yalnız belə olan halda biz bu qlobal bəladan xilas ola bilərik.

Nikolay Zamikula

Ukrayna Milli Strateji Araşdırmalar İnstitutunun baş elmi işçisi

Sülh İranı qorxudur

İranın yeni Xarici İşlər naziri Hüseyn Əmir Abdullahianın vəzifəyə keçdikdən sonra tezliklə Rusiyaya səfər etməsi təəccüb doğurmur. Qərbə qarşı birləşən Moskva və Tehran beynəlxalq arenada çoxdandır ki, birgə kontekstdə işləyirlər. İranın bu yaxınlarda tamhüquqlu üzv kimi Şanxay Əməkdaşlıq Təşkilatına qoşulması və Azad Ticarət Zonası sazişi barədə Avrasiya İqtisadi İttifaqı ilə apardığı danışıqlar da bunu sübut edir.

Hərçənd, İranla Rusiya arasında dostluğun olmadığını və əməkdaşlıqdan hər tərəfin özü üçün mənfəət götürdüyünü unutmaq lazım deyil. Praktik müstəvidə əksər məsələlərdə onların arasında ziddiyyətlər mövcuddur. Əvvəllər Suriyada vəziyyətin sabitləşməsi məsələsində Moskva ilə Tehranın fərqli baxışlarının olduğu, Bəşər Əsədin ətrafındakı rusyönümlü və iranyönümlü qütblər arasında qarşıdurmanın mövcudluğu barədə məlumatlar açıqlanırdı. İran və Rusiya həmçinin Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi məsələsində də fərqli mövqelər sərgiləyirdilər. Təsadüfi deyil ki, Tehran 2018-ci ilin avqustunda imzalanmış Konvensiyanı hələ indiyədək təsdiqləməyib.

Son hadisələr Cənubi Qafqaz probleminə münasibətdə də fəqrli baxışların meydana çıxdığını göstərir. Azərbaycanın İkinci Qarabaq müharibəsində qələbəsi regionda qüvvələr nisbətini dəyişib. Müttəfiqi olan Ermənistanın məğlubiyyəti Rusiyanın da, İranın da mövqeyinə təsir göstərib. Lakin Moskva münaqişə zonasında öz sülhməramlı kontingentini yerləşdirməklə və İrəvan üzərində birbaşa nəzarəti gücləndirməklə yaranmış vəziyyətdən müəyyən xeyir götürə bildi. Rusiya həm də regionda nəqliyyat dəhlizlərinin açılmasında iqtisadi maraqlara malikdir. Maraqlarına cavab verən şərtlər əsasında Kreml müəyyən mənada hətta Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasını da qəbul edə bilər.

İran isə əksinə, tamamilə uduzmuş mövqedə qaldı. Mahiyyət etibarilə, əgər Ermənistan nəzərə alınmasa, daha çox uduzmuş tərəf məhz İrandır. Onun münaiqəşədə itirak etmədiyini nəzərə alsaq, həqiqətən də bu, paradoksal bir haldır. Azərbaycanın qələbəsi regionun İran hakimiyyətini qane etməyən istiqamətdə yeni transformasiyası üçün şərait yaradır. Türkiyə-Azərbaycan ittifaqının güclənməsindən qorxan İran bunda türkçülük ekspansiyasının təhlükəsini görür. Tehran daim Türkiyə ilə Azərbaycan arasında əlaqələr sistemini əngəlləyən faktor saydığı Ermənistanın məğubiyyətindən narahatdır.

Ən nəhayət isə, İrəvanla Bakı arasında sülh müqaviləsi perspektivi Tehranın maraqlarına təhdid yaradır. Ermənistanın regional təcriddən çıxması bu ölkənin hakimiyyəti üçün İranın əhəmiyyətini demək olar ki, heçə endirəcək. Bu isə hazırda iranlıların sanksiyalar blokadasını pozmasına qismən imkan yaradan və Ermənistandan keçən nəqliyyat dəhlizinə təhlükədir.

Bu reallıqdan çıxış edən İran hakimiyyəti Azərbaycanın uğurlarını sarsıtmağa və regionda münasibətləri əngəlləməyə çalışır. Tehranın Bakıya qeyri-dostyana yanaşması əvvəllər də məlum idi. İran hərbçilərinin İkinci Qarabağ müharibəsi zamanı hərəkətləri barədə Azərbaycan tərəfinin bu yaxınlarda açıqladığı faktlar (2020-ci ilin oktaybrında Azərbaycanın sərhədlərini pozulması) bunun parlaq sübutudur.

İranın prezidenti postuna mühafizəkar İbrahim Rəisinin seçilməsi fonunda vəziyyət daha da qəlizləşir. Son həftələr ərzində Tehranın təxribatçı ritorikası, habelə Azərbaycan sərhədləri yaxınlığında keçirilən hərbi manevrlər bunu sübut edir. Sonuncu qeyri-dostyana addım – İranın Naxçıvana hərbi yüklərin daşınması üçün hava məkanını bağlanması,- iranlıların Azərbaycana dost münasibətləri barədə bəyanatlarının, habelə hansısa islam həmrəyliyinə istinadlarının boş sözlər olduğunu göstərir.

Amma İranın bu hərəkətlərinə Rusiyanın necə cavab verəcəyi sualı açıq qalır. Moskva regionda dövlətlərarası münasibətlərin real sabitləşməsində maraqlı deyil. O, öz maraqları naminə ölkələr arasındakı ziddiyyətlərdə oynayır. Bu, İrəvanla Bakı arasında münasibətlərin tənzimlənməsi prosesində onun hər iki ölkəyə təsirini gücləndirir. Belə vəziyyətdə İranın aqressiv davranışı Moskvanın planalarına kömək etməkdən çox, onları əngəlləyir. Bu baxımdan, Azərbaycan-İran münasibətlərindəki aktual böhran Rusiya-İran əməkdaşlığında daha bir sualtı daş ola bilər.

Hazırladılar: Cavad Muradov, Sahil İsgəndərov

Qarabağın taleyi indi Rusiyanın əlindədir”

Stanislav Tarasov: *”Görünür, ya Cənubi Qafqazdakı vəziyyəti pozacaq, ya da hər şeyi müəyyən ortaq məxrəcə aparacaq qərar hazırlanır”*

”Rusiyanın Cənubi Qafqazla bağlı mövqeyini deşifr etmək lazımdır”

Bunu rusiyalı politoloq, Yaxın Şərq və Qafqaz ölkələrinin problemləri üzrə ekspert Stanislav Tarasov ”Novosti Armenia” saytına müsahibəsində bildirib.

Onun sözlərinə görə, İkinci Qarabağ müharibəsindən sonra bölgədəki vəziyyət əhəmiyyətli dərəcədə dəyişib və Rusiya tərəfinin fikrincə, 9 noyabr razılaşmalarının yerinə yetirilməsinin vacibdir.

”İndi heç bir döyüş əməliyyatları getmir, yəni sazişin bu hissəsi icra olunur. Kommunikasiyaların blokadadan çıxarılmasına gəlincə, bu zəruridir, lakin burada mürəkkəb bir proses müşahidə edilməlidir, çünki heç bir üstünlük təklif edilmir, sərhədlərin demarkasiyasından sonra İrəvanla Bakı arasında sülh sazişinin imzalanması yalnız məsələlərin həlli mümkün olduqda baş verə bilər. Yəni Qarabağ münaqişəsinin nizamlanması, statusu məsələsi.

Eyni zamanda ATƏT -in Minsk Qrupu da aktivləşib. Nyu-Yorkda Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin görüşünün baş tutduğu məlumdur. Bu o deməkdir ki, indiyədək ATƏT-in Minsk Qrupu ilə işləməkdən imtina edən Bakı əməkdaşlığa başlayır, bu isə güzəşt deməkdir. Göründüyü kimi, kompromis razılaşması var, bu həm Bakı, həm də İrəvanı razı salır, əks halda belə görüşlər olmazdı. Üstəlik, tərəflər artıq liderlər səviyyəsində görüşün mümkünlüyündən danışmağa başlayıblar. Hansısa tərəf güzəştə gedib. Məncə, Bakı Qarabağın statusunu müzakirə etmək variantı üzərində görüşməyə razılıq verib”.

Ekspert qeyd edib ki, Paşinyanın Moskva səfəri gözlənilməz şəkildə İran-Azərbaycan münasibətlərinin kəskinləşməsi ilə əlaqələndirilir: “İran ikinci Qarabağ müharibəsinin nəticələrinə etiraz edir, Zəngəzur dəhlizinin yaradılmasına qarşıdır ki, bu da Azərbaycan üçün problem yaradır.

”İkinci məqam - Rusiyanın Türkiyənin ”3+3” formatında təşəbbüsünü dəstəkləməsidir və Lavrov bunu İran xarici İşlər naziri ilə görüşü zamanı elan edib.

Gürcüstanın Baş naziri Qaribaşvili iki gün öncə gözlənilmədən Ermənistana səfər edib. Bu fəal dialoq bir çox suallar doğurur. Paşinyanın ilk səfərindən sonra Ərdoğan bildirib ki, Qaribaşvili vasitəsilə onunla görüş təşkil etməyi təklif edib. Aralarında artıq Ermənistanda olan ikinci görüş, sülh platforması, deyəsən, yeni bir ”3+2” formatını nəzərdə tutur, çünki Gürcüstan Rusiyanın və hətta İranın iştirakı olmadan ”üçlük” təklif edir. Daha bir nüans var: Gürcüstan anlayır ki, Ermənistan indi anti-Rusiya ittifaqına qoşulmayacaq.

Görünür, Qaribaşvili Paşinyan vasitəsilə Putinə mesaj göndərir, çünki gürcülər ”3+3” formatına çox özünəməxsus reaksiya veriblər. Birincisi, ölkənin XİN rəhbəri Gürcüstanın iştirakının vacib olduğunu söyləyib, sonra maskalamaq qərarına gəlib. ”3+3” düsturu hazırda məchuldur: gürcülər iştirakdan imtina edir, ermənilər düşünür. Sual ortaya çıxır: üç ölkədən (İran, Rusiya, Türkiyə) konkret olaraq vaxt və çox ciddi diplomatik səylər tələb edən bu çox ciddi formulla kim məşğul olur? Hələlik bunlar yalnız sözlərdir.

Qaribaşvilinin Ərdoğandan Paşinyana müəyyən bir təklifi çatdırması da mümkündür.

Türkiyə mövqeyini dəyişib və Ermənistanla diplomatik əlaqələr qurmağın mümkün olduğunu söyləməyə başlayıb. Ərdoğan əvvəllər ermənilərin Zəngəzur dəhlizi layihəsini həyata keçirməli olduğunu söyləmişdisə, indi bu şərt yoxa çıxır. O, dalandan çıxmağın lazım olduğunu çox yaxşı başa düşür. Mənə elə gəlir ki, Türkiyə və Azərbaycan Ermənistanla bağlı gecikiblər. Müqavilə imzalandıqdan dərhal sonra (9 noyabr - red.) İrəvanla münasibətlərin normallaşmasını sürətləndirmək lazım, xüsusən də Ermənistan prinsipcə bu yolu tutmağa hazır idi.

Bakının bu çətin vəziyyətin mürəkkəbləşdiyini başa düşərək niyə sərhədlərin demarkasiyasını vurğulaması tamamilə anlaşılmazdır. Əvvəlcə münasibətləri normallaşdırmaq, ünsiyyətə girmək, sonra sərhədlərin demarkasiyasını təklif etmək lazımdır. Azərbaycan indi işi sürətləndirməyə çalışır, çünki İran Ermənistanla fəal oyuna başlayır, çünki İkinci Qarabağ müharibəsi zamanı onu dəstəkləməməklə səhv etdiyini söyləyərək, Türkiyə-Azərbaycan ittifaqı ilə müqayisədə, Ermənistanla hərbi ittifaq yaratmağa hazır olduqlarını söyləyir.

Yəni vəziyyət daha da mürəkkəbləşir. Məhz bu vəziyyətdə Paşinyan Moskvaya yollanır və hadisələrin aqibəti ilə bağlı Putinlə məsləhətləşəcək. Yalnız proqnozlar söylənə bilər. Çox güman ki, Moskva İranı çəkindirəcək, kommunikasiyalar blokadadan çıxarılmasının vacibliyi bəyan ediləcək və status-kvo təsdiqlənəcək. Bundan əlavə, Moskvanın ATƏT-in Minsk Qrupu ilə necə davranacağını görmək vacibdir. Minsk qrupu bölgəyə səfərlərin cədvəlini razılaşdırdığını bildirib. Nə vaxt, necə, kimlə və hansı danışıqlar aparılacaq - buna da baxmaq lazımdır. Gündəlik müəyyənləşdirilməlidir. Bir tərəfdən, bölgədə hadisələr sıralanır, digər tərəfdən, qapalı diplomatiya var və onun məzmunu yalnız ehtimallar doğurur. Bu diplomatiya İrəvanla Tehran arasındakı münasibətlərə, Bakı ilə Ankara arasındakı münasibətlərə, İrəvanla Moskva arasındakı münasibətlərə və Tehranla Moskva arasındakı əlaqələrə aiddir.

Rusiyanın Cənubi Qafqazla bağlı mövqeyini deşifr etmək lazımdır. O, Türkiyəni (9 Noyabr - red.) müqaviləyə daxil etməyib, ancaq ”sparring” ortağı olaraq istifadə edib. Bu, dolayı yolla Türkiyənin təsirinin tanınması, dolayı yolla Ankaranı bu prosesə cəlb etmədir. Çoxları deyir ki, tarixən bura Rusiyanın təsir zonasıdır və Rusiya təsirini itirir. Xeyr, Rusiya öz təsirini itirmir, sadəcə postsovet məkanında siyasətini yenidən formatlayır. Moskva Cənubi Qafqaz respublikalarının müstəqil olmalarını düşünərək onları ilhaq etmək niyyətində deyil. Ancaq neytrallıq olmalıdır, Rusiyaya qarşı düşmənçilik hərəkətləri üçün tramplin olmamalıdır. O, Abxaziya xalqının xilaskarıdır, Qarabağ ermənilərinin təhlükəsizliyinin qarantıdır. Azərbaycanın təkəbbürlü davranışlarını nəzərə alsaq, belə bir vəziyyətdə onlar Azərbaycan cəmiyyətinə inteqrasiya oluna bilməz, ona görə də Rusiya uzun müddət orada qalmalı olacaq.

Ümumiyyətlə, sülhməramlıların statusu müəyyən edilməlidir və bu iki şəkildə edilə bilər.

Putin Ermənistanın Qarabağı tanımaqdan imtina etdiyini və bunun təhqir kimi səsləndiyini söyləyib. İndi isə hüquqi baxımdan heç bir sülhməramlı korpusdan söhbət gedə bilməz. Söhbət Azərbaycan ərazisində müəyyən bir qoşun kontingentinin mövcudluğundan gedir. Qarabağın statusu və sülhməramlıların statusu məsələləri Moskva ilə Bakı arasında ikitərəfli danışıqlar yolu ilə həll edilə bilər. Yaxud ATƏT-in Minsk Qrupu Rusiya və ya digər sülhməramlıların statusuna qərar verə bilər. Bunun beynəlxalq sanksiyası olmalı, BMT Təhlükəsizlik Şurasının qərarı qəbul edilməlidir. Fransa da buna işarə edir, baxmayaraq ki, nə onun, nə də ABŞ-ın birlikləri ilə həqiqətən iştirak etmək istəyi yoxdur.

Hər halda, Moskva Ermənistan üçün şərtlər diktə etməyəcək və ya qəti şərtlər qoymayacaq. Ermənilər itirilə biləcək hər şeyi artıq itiriblər. Amma dövlətçiliyini qurban verərək bu yolda davam etmək istəyirlərsə, qoy belə olsun. Rusiyanı narahat edən yalnız Qarabağ ermənilərinin taleyidir, çünki İrəvan ermənilərindən fərqli olaraq, onlar həmişə rusiyapərəst olublar. Buna heç bir şübhə yoxdur və Rusiya inanır ki, Qarabağ ermənilərinin taleyinə cavabdehdir, onları heç vaxt tərk etməyəcək. İrəvan Stepanakertdən (Xankəndidən - red.) müharibə dövründəki kimi üz döndərərsə, o zaman Qarabağla Azərbaycan vasitəsi ilə əlaqə qurula bilər. Qarabağın taleyi indi Rusiyanın əlindədir”.

«Mesajımız çox sadə idi - dayandırın bunu!»

Prezident:
«Prezident seçiləndə mən kasıb insan deyildim»

Oktyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliyanın "La Repubblica" qəzetinə müsahibə verib.

Müsahibəni ixtisarla təqdim edirik.

- Sizi görməyimə şadam. Ermənistanla münaqişə mövzusundan başlamaq istəyirəm. Rusiyanın sülhməramlı vasitəçiliyindən razısınızmı?

- Bəli, ümumilikdə biz bundan məmnunuq. Təqribən bir ildir ki, müharibə başa çatıb və Rusiya sülhməramlıları Azərbaycanda, bizim Qarabağ bölgəsində yerləşib. Bu müddət ərzində bəzi xırda insidentlər istisna olmaqla vəziyyət sabitdir və ümumən biz bundan razıyıq. Əlbəttə, həllini gözləyən müəyyən məsələlər qalmaqdadır. Xüsusən də, hazırda Rusiya sülhməramlılarının məsuliyyət zonasında olan ərazilərimizə səfər etmək üçün Azərbaycandan icazə almalı olan əcnəbilər məsələsi var. Qarabağa səfər edən dırnaqarası turistlərin sayı kəskin şəkildə azalsa da, bəzi əcnəbilər hələ də bizim ərazimizə, Rusiya sülhməramlılarının olduğu yerlərə qanunsuz daxil olurlar. Bu məsələ Rusiyanın səlahiyyətli orqanlarının, Müdafiə Nazirliyinin diqqətinə çatdırılıb ki, buna son qoyulsun. Bu və bəzi digər məsələlər öz həllini tapmalıdır. Ancaq hazırda biz onların fəaliyyətindən ümumilikdə razıyıq.

- Aydındır. Bakı azad olunmuş ərazilərə sərmayə qoyacaqmı?

- Biz artıq sərmayə yatırırıq. Azad edilmiş ərazilərlə bağlı xüsusi investisiya proqramı qəbul edilib. Cari il üçün nəzərdə tutulmuş məbləğ təqribən 1.3 milyard ABŞ dolları təşkil edir. Sərmayə qoyuluşu əsasən infrastruktur layihələrinədir. Bu təsadüfi deyil. Bu, bizim seçimimiz idi. Mən demişdim ki, biz Böyük Qayıdışla bağlı yenidənqurma layihələrinə yalnız dost ölkələrdən olan şirkətləri dəvət edəcəyik. Bir neçə italyan şirkəti artıq müxtəlif layihələrdə, o cümlədən Zəfər muzeylərinin, Memorial muzeylərin və İşğal muzeylərinin yaradılmasında iştirak edir. Artıq bir italyan şirkəti bir bölgənin enerji təminatı məsələsi ilə bağlı bizimlə müqavilə imzalayıb. Bundan əlavə, digər italyan şirkəti kənd təsərrüfatı məhsullarının istehsalına sərmayə yatırmağa başlayıb. Beləliklə, italyan şirkətlərinin Azərbaycanda fəaliyyəti alqışlanılır və bu yenidənqurma işlərində daha çox italyan şirkətləri olacaq...

- Avropanın Cənubi Qafqazda daha geniş iştirakı müsbət hal ola bilərmi?

- Hazırda bu məsələlər geniş şəkildə müzakirə edilir. Avropa İttifaqı Şurasının prezidenti cənab Şarl Mişelin bu yay Azərbaycana səfəri zamanı biz Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının geniş gündəliyi ilə bağlı ətraflı müzakirələr apardıq. Əlbəttə, əməkdaşlığımızın enerji kimi ənənəvi sahələri var ki, buradakı nəhəng layihələrin icrasını yalnız alqışlamaq olar.

Bu gün Avropa İttifaqı bizim nəqliyyat potensialımıza böyük maraq göstərir və bu sahədə fəal iştirak edir. Çünki biz Azərbaycanı Avrasiyanın müasir infrastruktura və qonşularla şaxələndirilmiş kommunikasiya marşrutlarına malik mühüm nəqliyyat mərkəzinə çeviririk. Avropa İttifaqı bu prosesin bir hissəsi olmağı planlaşdırır. Biz, həmçinin Cənubi Qafqazda postmüharibə dövrünün inkişafında da Avropa İttifaqının rolunu müzakirə edirik.

- İranla bağlı nələr baş verir?

- Ümumilikdə? Yoxsa ikitərəfli münasibətlərimizi nəzərdə tutursunuz?

- Bəli. Müəyyən narahatlıq, müəyyən problemlər var. Bununla bağlı nə etməyi planlaşdırırsınız? Belə başa düşürəm ki, Sizin İsrail ilə yaxın olmağınızdan onlar o qədər də məmnun deyillər. Belədirmi?

- Bilirsiniz, bu, bəhanədir. Baş verənlərin səbəbi bizim bəzi digər ölkələrlə olan münasibətimiz deyil, çünki xarici siyasətimiz çox açıqdır, şəffafdır, sabit və dediyim kimi, müstəqildir. Heç bir digər ölkə Azərbaycanın qərarlarına təsir edə bilməz və ya buna çalışmalı deyil. Qərarlar burada - Bakıda Azərbaycanın milli maraqları əsasında mənim tərəfimdən verilir. Əgər kimsə süni bəhanədən istifadə etməyə çalışaraq Azərbaycanı digər ölkə ilə münasibətlərinin olmasında günahlandırıbsa, bu cəhdlər boş çıxıb. Bu, düzgün yol deyil və gətirib dalana çıxaracaq.

Baş verənlərin səbəbi çox sadədir. Azərbaycan öz sərhədlərinə hörmətlə yanaşılmasını istəyir. Qarabağın azad edilməsindən sonra biz Ermənistanla öz sərhədimizə çıxdıq. Biz öz sərhədimizə gəlib, orada yerləşdik. Ermənistanın bəzi şəhərləri arasındakı yol Azərbaycanın ərazisindən keçir. Bu yoldan Qarabağa, bizim ərazimizə malların qeyri-qanuni daşınmasında istifadə olunduğunu görməyə başladıq. Bu, qəbuledilməzdir. Biz öz sərhədlərimizə hörmətlə yanaşılmasını tələb edirik. Biz hər hansı digər ölkənin sərhədini qeyri-qanuni olaraq pozmuruq. Beləliklə, mesajımız çox sadə idi - dayandırın bunu! Biz ictimaiyyətə açıqlamadan çox dostcasına bildirdik ki, bunu dayandırsınlar. Çünki bu, düzgün deyil. Biz həmin yollara nəzarət edirik və görürük ki, aldatmağın, "bunun baş vermədiyini" söyləməyin yeri yoxdur. Əfsuslar olsun ki, bu xəbərdarlığa adekvat cavab verilmədi. Sonra biz ikinci addımı atmalı olduq. Biz diplomatik nota hazırladıq, səfiri dəvət etdik və bunu ictimaiyyətə açıqladıq ki, bunu dayandıraq. Amma, əslində, bu, daha pis forma aldı, İrandan Qarabağa gedən yük maşınlarının sayı artdı. Bu addımı biz zərbə, bilərəkdən hörmətsizlik kimi saydıq. Sonra biz tamamilə qanuni hesab edilən başqa tədbirləri gördük və bu, qonşu ölkədə böyük qarışıqlığa, lazımsız hərəkətlərə səbəb oldu. Yersiz bəyanatlar verildi, hədələr edildi, sərhədimizə yaxın hərbi təlimlər keçirildi. Müəmmalı idi ki, ilk dəfə hərbi təlimlərin planlı tədbir olduğu deyildi. Sonra isə deyildi ki, bizə nəyi isə nümayiş etdirmək üçün edildi. Heç kəs öz iradəsini bizim üzərimizə qoya bilməz. Biz bütün ölkələrlə və ilk növbədə, qonşularımızla dost münasibətlərə malik olmaq istəyirik. Bir çox hallarda mən Azərbaycanın xarici siyasət prioritetləri haqqında danışanda, - əslində, bunların hamısı çap edilib, – demişəm ki, bizim prioritetimiz qonşu ölkələrlə münasibətlərdir. Səkkiz il ərzində işlədiyimiz əvvəlki İran hökuməti ilə biz münasibətlərimizi ən yüksək mümkün səviyyəyə qaldıra bildik. Mənim həmkarım cənab Həsən Ruhani ilə ondan artıq görüşüm olub. Bütün həmin görüşlər məhsuldar olub. Biz enerji, nəqliyyat, mədəni inkişaf, təhlükəsizlik sahələrində bir çox sazişləri imzalamışıq və icra etmişik. Münasibətlərimiz, əslində, dostluq və yaxşı qonşuluq rəmzinə çevrilmişdir. İranın yeni hökuməti, yeni Prezidenti seçiləndə biz nə etdik? Biz onun inauqurasiyasına parlament sədrinin və Baş nazirin müavininin rəhbərliyi ilə böyük nümayəndə heyətini göndərdik. Onlar mənim dostluq mesajımı birbaşa İran Prezidentinə çatdırdılar. Eyni zamanda, digər çatdırılan mesaj və mən bunu xüsusi olaraq əvvəlcə bildirdim, belə idi: "Xahiş edirik Qarabağda İran biznesmenləri tərəfindən aparılan qeyri-qanuni biznes fəaliyyətinə diqqət yetirin". Biz İran hökumətini ittiham etmək mövqeyində deyildik. Biz anladıq ki, bunu bəzi özəl şirkətlər edir. Lakin biz bunun dayandırılmasını xahiş etdik. Cavab olaraq nə baş verdiyini hər kəs görür. Nəticədə nəyə nail olduq? Bir daha söyləyim ki, heç bir yaxşı şey baş vermədi. Buna görə, biz, ilk növbədə, İsrailin azad olunmuş torpaqlara gətirilməsi ilə bağlı Azərbaycana yönələn bütün ittihamları rədd edirik. Bu, tamamilə cəfəngiyyatdır. Bu, sadəcə, Azərbaycanı qaralamaq məqsədilə daxili auditoriyaya yönəlmiş bəhanədir. Hər kəs gedib görə bilər ki, orada heç həyat yoxdur. Hər bir şey dağıdılıb. İkincisi isə biz digərlərinə etdiyimiz hörmətin özümüzə də olmasını tələb edirik.

- Cənab Prezident, çox sağ olun. Ümid edirəm, Sizinlə bir gün Bakıda görüşəcəyəm.

İlham Əliyev: Münasibətlərimiz dostluq və yaxşı qonşuluq rəmzinə çevrilmişdir

Həyatınızı ”patı”rmayın

Son zamanlar dilimizə məşum bir kəlmə daxil olub: ”Patı”. Əlbəttə, ölkədə yayılan narkotik vasitələr təkcə ”patı”dan ibarət deyil, amma məhz bu lənətəgəlmiş maddə - metamfetamin,- əvvəlkilərdən daha çox kütləviləşməklə, ölkədə sosial təhdidə çevirilib.

Bu təhdid artıq elə miqyas alıb ki, onunla mübarizə hər kəsin borcudur. Hər kəs əlində olan imkanlarla bu bəlaya qarşı mübarizə aparmalıdır. Polis polis kimi,

jurnalist jurnalist kimi, vətəndaş da vətəndaş kimi. Ölkənin yeganə karikatura saytı olan kirpi.info-nun əməkdaşları da öz silahları ilə bu mübarizəyə qoşulublar.



Hələ bir neçə il əvvəl mərhum akademik Ramiz Məmmədov bildirmişdi ki, Bakıda küləklər əvvəlki kimi çox da şiddətli deyil: ”Bundan əlavə, paytaxtda əvvəllər müşahidə olunan şimal və şimal-qərb küləklərinin istiqməti son illər dəyişərək şimal-şərqə keçib. Küləklərin şiddətinin azalması və istiqamətinin dəyişilməsi, yalnız Bakıda müşahidə olunmur. Belə ki, Şimali Xəzər və Bakının daxil olduğu Orta Xəzər zonasında da şimal-qərb istiqamətli şiddətli küləklərin sürətinin azalması müşahidə edilir. Bu nəticələr son 20-30 ildə aparılan araşdırmalar nəticəsində ortaya çıxıb”.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Ekologiya və ətraf mühitin mühafizəsi

Bakının külәkləri dağlara çəkilib

Güclü külək həm də sanitar rolunu oynayır

Mütəxəssislər bildirir ki, bunun konkret səbəblərini demək mümkün deyil. Yalnız onu qeyd etmək olar ki, dəyişikliyə, əsasən, eko-sistemdə gedən dəyişmələr səbəb olur. Belə nəzərəçarpacaq dəyişikliklər adətən 10-20 əsr boyunca, tədricən gedir. Abşeron yarmadasında isə bir insan ömrü qədər vaxtda küləklərin şiddətinin və əsmə müddətinin azalması hiss edilir. Ekoloqların dediyi kimi, bu proses eko-sistemlərdə baş verən ciddi dəyişikliklərlə bağlıdırsa, deməli gələcəkdə təbiət bizə başqa sürprizlər də edə bilər.

Bir sıra alimlər Abşeron yarmadasında küləklərin şiddətinin və əsmə müddətinin azalmasını bir xəbədarlıq kimi dəyərləndirirlər. Lakin bu xəbərdarlığın nəyi, hansı hadisələrin baş verə biləcəyindən ehtiyatlanaraq verdiyini öyrənmək üçün kompleks araşdırmalara ehtiyac var. Çünki bizi əhatə edən eko-sistemlər o qədər mürəkkəb mexanizmə malikdir ki, burada səbəb və nəticə əlaqələrini müəyyənləşdirmək o qədər də sadə deyil.

Bu ilin yazından isə Bakıda, ümumiyyətlə güclü küləklər əsmir. Bakı sakinləri bunu Tanrının onlara ərmağanı kimi qəbul edir. ”Elmilər Akademiyası” metrostansiyası ətrafında apardığımız kiçik sorğu nəticəsində bəlli oldu ki, paytaxt sakinlərinin böyük əksəriyyəti üçün küləklər arzuolunmaz təbiət hadisəsidir. Məsələyə insanların fəaliyyəti baxımdan yanaşdıqda paytaxt sakinlərinin mövqeyi məntiqlidir. Bakı külәkləri həm əhalinin məişətinə, həm də sənayeyə və xalq təsərrüfatının bir sıra sahələrinə ciddi zərər vura bilir. Məsələn, bir neçə il əvvəl güclü külək neft daşlarında çoxsaylı insan tələfatı ilə nəticələnən qəzaya səbəb oldu. Hansı ki, onlardan bir neçəsinin nəşi, ümumiyyətlə tapılmadı.

Bütün bunlarla yanaşı, Bakı küləklərinin faydası da az deyil. Belə ki, ilk növbədə güclü küləklər Abşeron atmosferində sanitar rolunu oynayır. Rəsmi məlumatlara görə, Abşeronda atmosfer çirklənməsi normadan 2-3 dəfə çoxdur. Ancaq müstəqil ekspertlər idda edir ki, real vəziyyət rəsmi statistikadan daha ağırdır. Bəzən Bakıda havanın çirklənmə səviyyəsi normadan 7-8 dəfə çox olur. Lakin tez-tez əsən küləklər çirkli havanı qovaraq dağıdır və bununla da havada çirkllənmə səviyyəsini aşağı salır.

Bundan əlavə külək həm də alternativ enerji mənbəyidir - sərvətdir. Bu baxımdan küləklərin azalması, həm də ölkənin alternativ enerji potensialının zəifləməsinə səbəb olur.

Məsələ ilə bağlı müstəqil ekoloq Telman Zeynalovla söhbətimiz zamanı o, bildirdi ki, Abşeron iqtisadi rayonunda son 20-30 il ərzində küləklərin şiddətinin azalması və istiqamətinin dəyişməsi bilavasitə iqlim dəyişikliyi ilə bağlıdır: *”Əvvəllər Bakıya küləklər şəhəri deyərdilər, indi artıq o küləklər yoxdur, səngiyib. Mənə elə gəlir ki, bizdə son vaxtlar həddən ziyada siklon və antisiklon oyunları gedir. Hazırda Abşeron yarmadasında atmosfer siklonları davam edir. Onun əlaməti buludlu havadır. Küləklər bizdən yan keçir, buludlar bizim səmaya qovulur, bununla da yağıntıların miqdarı çoxalır. Antisklon isə buludsuz günəşli hava şəraiti ilə müşahidə edilir. Bəzən aylarla siklon, bəzən isə aylarla antisklon höküm sürür ki, bu da süni şəkildə yaradılır. Antisklon şəraitində atmosfer təzyiqi və tempratur artır ki, bu da insanlarda olan bəzi xəstəlikləri şiddətləndirir. Bunların hamısı geofiziki və metrioloji silahlardan istifadə etməklə süni şəkildə yaradılır”.*

Geofiziki və metrioloji silahların varlığını Telman Zeynalov BMT-nin 26 konvensiyası ilə əsaslandırdı: *”Bu silahlardan istifadə etməmək barədə dünya ölkələrinin hamısı BMT-nin 26 konvensiyasına imza atıb. Belə bir silah növü yoxdursa, nə üçün BMT bu silahlardan istifadə etməməkdən ötrü konfensiyalar qəbul edir, dövlətlərin üzərinə öhdəlik qoyur? Silahdan istifadəyə qadağa qoyulubsa, deməli o silah mövcuddur. Sadəcə olaraq bu silahlar partlayıcı deyil, iqlimi dəyişdirir, təbiət hadisələrini yaradır və ya yaranmasına mane olur.*

Məsələn, müasir dünyadan o silahlarla Ərəbistan səhralarına qar yağdırmaq, qışın ortasında Sibirdə yüksək temperaturlu hava şəraiti formalaşdırmaq, meşə yanğınları, sel və daşqınlar yaratmaq mümkündür. Amma bütün bunlar ətraf mühitdə çox ciddi fəsadlar yaradır”.

Yuxarıda sadalanan problemlərin özəyində süni və ya təbii formada iqlim dəyişiklikləri-nin baş verməsinin dayandığı aydın görünür. T. Zeynalovun dediklərinə inansaq, süni iqlim dəyişikliklərinin qarşısını almaq bizim imkanlarımız daxilində deyil. BMT-nin 26 konvensiyası bunun qarşısını ala bilmirsə, deməli, bu bir ölkənin imkanları xaricindədir. Son nəticədə, bütün bunlar onu deməyə əsas verir ki, iqlim dəyişikliklərinin bir qismi, bəlkə də əksəriyyəti məhz, insan fəaliyyəti ilə bağlıdır.

Konkret olaraq Abşeron iqtisadi rayonunun əsas problemi atmosfer çirklənməsidir. Abşeron atmosferinin sanitarı olan şimal külәkləri yoxdursa, onun qayğısına özümüz qalmalı olacağıq. Bunun üçün paytaxtda nəqliyyat və əhali sıxlığı azaldılmalı, sənaye müəssisələri ölkənin digər iqtisadi rayonlarına köçürülməli, yarmadanın yaşıllaşdırılması daha intensiv şəkildə həyata keçrilməlidir. Bütün bu işlərin uğurlu layihələrlə həyata keçrilməsi üçün dünya təcrübəsi var. Bizim üzərimizə düşən vəzifə isə həmin təcrübəni Azərbaycana gətirməkdir.

Bu layihələr haqqında söhbət açmaq bir məqaləyə sığışmaz. Yalnız onlardan birini bir neçə cümlə ilə diqqətinizə çatdırmaq istərdik.

Pribaltika ölkələrinin bütün şəhərlərində ictimai nəqliyyatdan əhali ödənişsiz istifadə edir. Bu, şəhərlərdə nəqliyyat sıxlığını bir neçə dəfə azaldıb. Bununla həm şəhərlərdə tıxaclar aradan qalxıb, həm də atmosferə atılan tullantıların həcmi əhəmiyyətli dərəcədə azalıb. Bu ölkələrdə sadəcə, dövlət büdcəsindən ətraf mühitin mühafizəsinə ayrılan vəsaitin bir hissəsi ictimai nəqliyyatın maliyyələşdirilməsinə yönəldilib.

Akif Nəsirli

“Əsasən sərhədlər və “3+3 formatı” müzakirə olunub”

Ermənistanın Baş naziri Nikol Paşinyanın Moskvaya ötən günkü səfəri çərçivəsində Rusiya Prezidenti Vladimir Putinlə müzakirə olunan mövzular və görüşün nəticələri barədə müxtəlif fikirlər səsləndirilməkdədir. Hazırda xüsusilə erməni mətbuatında bu görüş barədə geniş şərhlər, mülahizələr dərc edilir.

“Sputnik Armenia”-ya danışan erməni politoloq Ervand Bozoyan görüşün əsas mövzusunun 10 noyabr və 11 yanvar razılaşmalarının reallaşdırılması, Azərbaycan-Ermənistan sərhədlərinin demarkasiya və delimitasiyası və “3+3 formatı”olduğunu bildirib.

Politoloq “3+3 formatı”nın Türkiyə tərəfindən təklif olunduğunu bildirərək, Rusiyanın da bu ideyaya müsbət yanaşdığını xüsusi qeyd edib: **“Hələ 2008-ci ildə Rəcəb Tayyib Ərdoğan bu cür təşəbbüslə çıxış etmişdi. O zaman bu, “Qafqaz Platforması” adlandırılırdı. Həmin vaxt Rusiya bu məsələdə passiv mövqe tuturdu və bu səbəbdən məsələ uzun müddət müzakirə olunmadı. Lakin Qarabağdakı müharibədən sonra Cənubi Qafqazdakı geosiyasi konfiqurasiya dəyişdi. Regionda Avropa Birliyi və ABŞ-ın rolu zəiflədi, Türkiyənin rolu isə artdı. Tehranın aktivliyi də məhz bu proseslə bağlıdır və o, maraqlarına toxunan həmin prosesdən kənarda qalmaq istəmir.”**

Putin-Paşinyan görüşü barədə danışan politoloq Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin müzakirə olunduğuna inanmadığını bildirib. Çünki onun fikrincə, bunun üçün həlli vacib olan bir çox məsələlər var ki, hələ onlarla bağlı tərəflər razılığa gələ bilməyiblər.

“Qarabağa dair saziş hazırlanır“

”Fransa Rusiya və ABŞ-la Dağlıq Qarabağla bağlı uzunmüddətli müqavilə bağlamaq üçün çalışır”

Bunu Fransanın Ermənistandakı yeni təyin olunmuş səfiri Anne Luyo ”Azadlıq Radiosu”na müsahibəsində bildirib.

Səfir təfərrüatlar barədə məlumat verməyib, lakin ATƏT-in Minsk Qrupuna həmsədrlik edən hər üç ölkənin bu prosesdə iştirakını vurğulamağı zəruri hesab edib.

“Bilirsiniz ki, burada, Ermənistanda ATƏT-in Minsk qrupunun işində iştirak etmirəm. Bir həmkarım var - Fransanın ATƏT-in Minsk qrupundakı nümayəndəsi olan Stefan Viskonti. Ancaq artıq deyə bilərəm ki, Nyu-Yorkda irəliləyiş qeydə alınıb, ATƏT-in Minsk qrupunun digər həmsədrləri ilə birlikdə məmnuniyyətlə iki xarici işlər nazirinin (Ermənistan və Azərbaycan - red.) görüşünü təşkil etdik. Kiçik bir addım kimi görünə bilər, amma çox böyük bir addım idi. Ümid edirik ki, bu cür başqa həllər olacaq. Sizi əmin edə bilərəm ki, Rusiya və Amerikalı tərəfdaşlarımızla Qarabağla bağlı daha uzunmüddətli müqavilə bağlamağa yönəlmiş prosesi inkişaf etdirmək üçün çalışırıq”.

ATƏT-in Minsk qrupunun aktivləşməsini gözləməyin lazım olub-olmadığını aydınlaşdıran suala Fransanı təmsil edən diplomat belə cavab verib: “ATƏT-in Minsk qrupu artıq bayaq dediyim kimi, Nyu-Yorkda artıq fəallaşıb. Biz tək deyilik. Düşünürəm ki, Ermənistan və Azərbaycan da hərəkət etməlidir”.

Din xadimlərinin birgə bəyanatı

Azərbaycan və Ermənistan xalqları arasında bugünkü və gələcək nəsillərin rifahı naminə sülhün bərqərar olmasına dini liderlər dəstək verməyə hazırdır.

Bu barədə Azərbaycan, Ermənistan və Rusiya dini liderlərinin Moskva şəhərindəki görüşü başa çatdıqdan sonra Moskva və Rusiya patriarxı Kiril tərəfindən səsləndirilən bəyanatda bildirilir.

“Azərbaycan və Ermənistan xalqları üçün birgə yaşayışdan başqa gələcək yoxdur. Bu gün insanlar arasında etimadı bərpa etmək daha mühümdür”, – bəyanatda qeyd olunur.

Rusiya dini lideri həmçinin deyib ki, bizim üçün qardaş olan iki xalqın dini icmalarını və sakinlərini narahat edən bu mürəkkəb problemləri müzakirə etmək üçün üz-üzə gəlməyə hazır olduqlarına görə Azərbaycan və Ermənistan dini liderlərinə təşəkkür edirəm.

“Dinin nadir sülhpərvər imkanlarına malik olmasına şübhə etmirik. Azərbaycanla Ermənistan arasında münasibətlər bu gün nə qədər çətin olsa da, əminik ki, məhz Tanrıya inanc və sevgi uzun illərdir davam edən faciəli qarşıdurmanın açdığı yaralara şəfa tapmağa kömək ola bilər. Dini liderlər dinlər və xalqlar arasında mehriban qonşuluq ab-havası yaratmaq və onu qorumaq üçün öz nüfuzundan istifadə etməlidirlər”, – patriarx Kiril əlavə edib.

İranpərəstliyin əcaib təzahürü...

Və ya molla rejiminin xidmətçilərinin cırılan maskaları

Yaxud Bütöv Azərbaycan məfkurəsi ilə “Böyük Ermənistan” xəstəliyini necə eyniləşdirmək olar?

Son İran-Azərbaycan gərginliyi İran rejiminin Azərbaycandakı “beşinci kolonu”nu hərəkətə gətirməklə yanaşı, həm də onu çaş-baş salıb. Nəticədə bu xəttə xidmət edənlərin bir çoxunun arxasında gizləndikləri maskalar cırılmağa başlayıb...

Adətən İranın buradakı təəssübkeşləri barədə danışarkən daha çox Allahşükür Paşazadə başda olmaqla, müxtəlif din xadimlərinin, məzhəbçilərin və s. adları çəkilir, onlardan sitatlar gətirilir. Lakin onlarla yanaşı, üzdə Azərbaycanın İranla münasibətlərinin normal, dostluq, hətta qardaşlıq səviyyəsində olmasının vacibliyini təbliğ etmək kimi xoş niyyət ortaya qoyan, ancaq eyni zamanda paralel olaraq müxtəlif zərərli və dolayısı ilə molla rejiminin maraqlarına cavab verən fikirlər yayan ictimai fəallar, politoloqlar, ayrı-ayrı tanınmış şəxslər də var.

Son günlər Qarabağ Azadlıq Təşkilatının(QAT) sədri Akif Nağının sosial şəbəkələrdə yayımlanan bir fikri mübahisələrə səbəb olub. Həmin fikir belədir: “Bu gün də eyni vəziyyət davam edir. Yanlış tezislər təbliğ olunur. Ermənistana “Böyük Ermənistan” xəstəliyini yoluxduran beynəlxalq güclər azərbaycanlıları “Bütöv Azərbaycan” xəstəliyinə yoluxdurmağa çalışırlar. Yoluxmadıq, yoluxmarıq. İrana gəldikdə, ona öz dövlətimiz kimi baxmalıyıq. Orada yaşayan 30 milyon soydaşımız öz dövlətinə sahib çıxmalıdır və çıxacaq. Primitiv adamların zərərli təbliğatına uymayın.”

Özünü Qarabağın azadlığına çalışan bir hərəkatın sədri hesab edən şəxsin ermənilərin xəstə təxəyyülü, sırf terrorçuluq və işğalçılıq üzərində qurulan “Böyük Ermənistan” nəzəriyyəsi ilə Azərbaycanın bütövləşməsi, azərbaycanlıların haqq-halalı olan torpaqlarda yaşaması, vahid dövlət olması istəyinə söykənən Bütöv Azərbaycan ideyasına eyni müstəvidən baxması olduqca qüsurlu, çox zərərli, hətta utancverici yanaşmadır. Bu bənzətməni, eyniləşdirməni heç Azərbaycanın güneyilə şimalının yaxınlaşmasını ən qorxulu yuxu kimi görən İran rejiminin qatı şovinist nümayəndələrindən belə görməzsiniz.

Azərbaycanın bütövləşməsi ideyasını, müəyyən tarixi hadisələr, savaşlar və s. nəticəsində haqsız olaraq bölünmüş xalqların birləşməsi istəyini “xəstəlik” adlandırmaq isə heç bir halda sağlam düşüncənin məhsulu sayıla bilməz. Deməli, belə çıxır ki, ötən əsrin sonuna yaxın Almaniyanın bütövləşməsinə nail olanlar, yaxud bu gün Koreyanın cənubunun və şimalının birləşməsini istəyənlər xəstədirlər, A.Nağı isə sağlam...

Həmçinin, İran rejiminin son zamanlar Azərbaycana ünvanladığı şər-böhtanlardakı “beynəlxalq güclər” tezisindən istifadə edən bu şəxsin həmvətənlərimizin ana dilində təhsil də daxil olmaqla heç bir hüququnu tanımayan bir rejimi, dövləti özünün hesab etməyə dair çağırışı isə yumşaq desək, qəribə görünür.

“Primitivlik” söhbətinə gəlincə, görünür, məmləkətimizin bütövlüyü, birliyi uğrunda mübarizə aparmış tarixi şəxsiyyətlərimiz, bu mövzuda ədəbi əsrlər yaratmış şair və yazıçılarımız primitiv, A.Nağı isə böyük intelektualdır...

Hələ 5 il bundan əvvəl həmin bu A.Nağı “İran Qarabağ və Azərbaycanın işğal olunmuş digər əraziləri məsələsində həmişə Azərbaycanın hamisi olmuşdur” demişdi. Nəinki ötən 5 ildə, ümumilikdə son 30 ildə, eləcə də 44 günlük müharibə və ondan sonrakı dövrdə İranın kimin hamisi olduğu açıq-aydın göründü...

Təəssüf ki, uzun illər, xüsusilə də son zamanlar buna bənzər fikirlərə, İrandakı rejimin maraqlarına xidmət etdiyi şübhə doğurmayan tezislərə tez-tez rast gəlinir. Bu da başa düşüləndir - İran rejiminin “quyruğu” qısıldıqca, buradakı xidmətçiləri fəallaşacaq. Ancaq A.Nağı demişkən, “Primitiv adamların zərərli təbliğatına uymayın”...

XI YAZI

Siracəddin Hacı

FATİHƏ SURƏSİNİN MESAJLARI

(əvvəli ötən saylarımızda)

Qurani-Kərim buyurur ki, uca Allah hidayəti istəyənə verir (Bəqərə, 2/272), elçinin işi dəvətdir (Şura, 42/52-53), iman et, haqqa yönəl, O da hidayəti yaratsın (Təğabun, 64/11; Rəd, 13/27), iradə hürriyyətin var, seçim sənə aiddir, hər kəs hidayətə möhtacdır, O, hidayət istəyənin hidayətini artırar. (Kəhf, 18/13; Məryəm, 19/76)

"Bizi doğru yola - hidayətə yönəlt". İbn Abbas deyir ki, "bizi yönəlt" bizi maarifləndir deməkdir, irşadla, maariflə (cəhalətdən qurtarmaq) hidayət eyni şeydir.

Hidayətin üç anlamı var: açıqlama (maariflənmə), doğru yola yönəltmə (azmaqdan qoruma), uca Allahın bizim üçün hidayəti yaratmasını istəmə. (Ebu Mansur el-Maturidi, göstərilən qaynaq, s. 48)

Hidayət hər an və hər işində iman halında olmaqdır. Əbussuud Əfəndi deyir ki, "bizi doğru yola (hidayətə) yönəlt" ayəsində uca Allaha ibadət mərtəbəsinin ucalığına, buna qovuşmağın əzizliyinə, ibadət edən qul üçün bunun ən böyük arzu və hədəf olmasına, bunun şəxsi səyi ilə deyil, uca Allahın lütfü olduğuna açıq işarələr var.

Uca Allah buyurur ki, O, doğru yola yönələnlərin hidayətini artırar, onlara qorunma gücü bəxş edər.

Hz. Əli "bizi hidayətə yönəlt!" ayəsini bizə hidayətdə səbat (qərarlılıq) ver kimi təfsir etmişdir.

Əbul-Leys Səmərqəndi bir müridin hidayətə qovuşmasını bədii dillə gözəl açıqlayır: "... Mürid könül aynasından ağıl gözü ilə baxdı, surətinin eybləri ona göründü. Xətaları ortaya çıxdı. Allaha müxalifət etdiyi bilindi. Az qalmışdı ki, həlak olsun. O anda peşman oldu, doğruluq kəmərini bağladı. Belinə ixlas ətəyini bənd etdi. Oyandı və haqq yoluna baş qoydu. Tövbə silahını əlinə aldı, təvəkkül qabını belinə taxdı. Riza və təslimiyyət azuqəsini içinə qoydu. Qənaət qılıncı ilə nəfsin havasını öldürdü. Şeytanı məğlub etdi, ağıl və canı sevindirdi. Bunlarla mütləq hökm sahibinin qapısına çatdı. Allahın lütf və yardımından istifadə etdi. Allahın lütf və yardımından istifadə edən rəhmət məcunundan yeyər, mərifət dərmanlarından içər, bu yolla qəlbi və bədəni sağlamlığa qovuşar. Ona bulaşmış xəstəliklərdən qurtular. Qəbri cənnət bağçalarından bir bağça olar... Bütün bu arzular ancaq Yaradanın lütfü ilə gerçəkləşər" (Ebul-Leys Semerkandi, Tefsirul-Kuran, İstanbul, 1993, c.I, s. 55).

"Bizi doğru yola yönəlt" ayəsini oxuyan hidayətə qovuşmaq üçün yardım istəmiş, qovuşduqdan sonra da səbat diləmiş olur. Seyyid Kutub insanı hidayətə qovuşduran səbəbləri belə sıralamışdır: "... Bu yolu tapmaq və ondan ayrılmamaq uca Allahın rəhmət, hidayət və nəzarətinin, yalnız Allaha yönəlməyin, Onun tək yardımçı olduğuna inanmağın nəticəsidir. Bu da möminin Allahdan istədiyi ilk və ən böyük arzudur, çünki doğru yola qovuşmaq dünya və axirət səadətini qazanmağın qəti təminatıdır (güvəncəsidir). Bu qovuşma, əslində, aləmlərin Rəbbi olan Allahın bütün yaradılmışların hərəkəti ilə insan davranışları arasındakı ahəngi (uyumu) təmin edən ölçüsünə (prinsipinə) qovuşma hadisəsidir" (Seyyid Kutub, Fi Zilalil-Kuran, İstanbul, 2001, c. I, s. 35-36).

Hidayətə qovuşmaq insanı günahlardan, anlamsızlıqdan, ümidsizlikdən, köləlikdən, qorxunc aqibətdən qoruyar.

Hidayət uca Allahın lütfü ilə insana yol göstərməsidir. Onun hidayət vasitələri çoxdur: ağıl, duyğular, haqq ilə batili ayıran dəlillər, elçilər, ilahi kitablar...

Hidayətdə olanın hidayət istəməsi daha çox hidayət tələb etməsi və doğru yolda qərarlılıq diləməsidir: bizi doğru yolda qərarlı qıl, o yolda getməyi ehsan et, ey Rəbbimiz!

Hidayət uca Allahın inananlara vəd etdiyi zəfərə qovuşmaqdır.

"Bizi doğru yola (hidayətə) yönəlt" ayəsində "sirat" ("yol") anlayışı da var. "Sirat" sözü "sinra-ta" kökündəndir. Qurani-Kərimdə bu kökdən olan sözlərin ("sirat"/ "əs-sirat" biçimində) sayı qırx beşdir. "Sirat" sözü ilahi mətndə həqiqət anlamını daşıyan "yol" (Əraf, 7/86; Yasin, 36/66; Mülk, 67/22), məcazi mənada "həqiqət" və "hidayət yolu" (Fatihə, 1/6; Bəqərə, 2/142, 213; Ali-İmran, 3/51, 101...) kimi işlədilmişdir.

Allah Rəsulu buyurur: "Doğru yol İslamdır" (Tirmizi, Fədailul-Kuran, 14; Darimi, Fədailul-Kuran,1). İbn Hənbəlin rəvayət etdiyi hədisdə də siratın İslam olduğu bildirilir (Müsnəd, 6/1).

Qurani-Kərimdə "sirat" sözü "Quranın yolu" anlamında da işlədilmişdir: "Bu gün dininizi sizin üçün tamamladım və Allaha təslimiyyəti sizin üçün həyat tərzi olaraq seçdim" (Maidə, 5/3), "Allaha (Onun Kitabına) sımsıx sarılan doğru yola yönəldiləcək" (Ali-İmran, 3/101), "Allah yalanı təbiət halına gətirən heç bir nankoru əsla doğru yola yönəltməz" (Zümər, 39/3)...

Qurani-Kərimdə "doğru yol" buyruq və yasaqlardır. Uca Allah doğru yolunu bu ölçülərlə açıqlamışdır:

- Ona şərik qoşmayın;
- ana və ataya qarşı gözəl davranın;
- ruzi qorxusu ilə uşaqlarınızı öldürməyin;

Hidayət uca Allahın inananlara vəd etdiyi zəfərə qovuşmaqdır

- açıq, ya da gizli heç bir günaha yaxınlaşmayın;
- günahsız insanı (haqlı bir əsas olmadan) öldürməyin;
- yetimin malına toxunmayın;
- ölçüdə, çəkidə aldatmayın;
- danışarkən (haqqında danışdığınız yaxınınız da olsa) ədalətli olun;
- Allaha verdiyiniz sözə sadiq olun; (Ənam, 6/151-152)

Uca Allah bu ölçüləri saydıqdan sonra buyurur: "Mənim dosdoğru yolum budur. O halda, bu yolu izləyin, fərqli yollara sapmayın ki, sizi Onun yolundan uzaqlaşdırmasınlar!" (Ənam, 6/153)

Doğru yolun hədəfi insanın və toplumun hüzurlu həyatını təmin etməkdir: "Biz bu ilahi kitabı sənə çətinlik çəkərək rahatsız olasan deyə endirmədik..." (Taha, 20/2)

Doğru yol tək doğru yoldur, uca Allahın seçdiyi həyat nizamıdır: "Heç şübhə yoxdur ki, bu Quran ən doğru yola (tək doğru yola) yönəldir, ərdəmli və gözəl davranışları olanları mütləq möhtəşəm bir qarşılığın gözlədiyini müjdələyir" (İsra, 17/9). Ayədəki "müstəqim" sözü də "sirat" sözünə əyriliyi olmayan yol anlamını yükləyir.

Bir sıra islam alimləri demişlər ki, doğru yol Qurandır, imandır, dindir, haqq yoludur, orta yoldur, islah edənlərin yoludur, ədalətdir: "Hansı qəbul edilirsə, edilsin, sirat əyriliyi və azması olmadan varlığını davam etdirən, içində ziddiyyətlər olmayan mənəvi bir yoldur. Bu yoldan ayrılmayan Fatihədə anladılan ilahi lütflərə qovuşar" (İmam Maturidi, göstərilən qaynaq, s. 48).

"Müstəqim yol" doğruluğu əqli və nəqli (ağılla, ilahi mətnlə) dəlillərlə sabit olan yoldur, bu yolun doğruluğunun dəlilləri qarşı fikirlərlə yox edilə bilməz. O yola təslim olan qurtular, o yol insanı hüzura qovuşdurar, cəhənnəm atəşindən qoruyar. İnsan o yolun vasitəsi ilə anlamlı həyat yaşayar, axirət səadətinə qovuşar. O yol sahibini arzu etdiyinə bağlayar. Bizi doğru yola yönəlt, yəni: "Bizi İslamın könüllərdə yerləşib sabit olacağı səbəblərə hidayət et. Onunla bizi arzu etdiklərimizə çatdır. Bizi dağınıq və batil yollardan qoru..." (Semerkandi, göstərilən qaynaq, s. 53)

Abdullah ibn Məsud rəvayət edir: "Allah Rəsulu bir gün bir düz xətt çəkdi. İki yanına da əyri xətlər çəkdi. Sonra buyurdu ki, bu düz xətt sirati-müstəqim olan İslamın yoludur. Əyri xətlər isə dağınıq və batil yollardır ki, hər birinin əvvəlində şeytanlar var. Onlar insanları haqq yoldan uzaqlaşdırıb, batil yollara yönəltmək üçün çalışırlar".

İki nöqtə arasındakı ən qısa xətt düz xətdir, doğru yol da o xətt kimidir.

Ərəb dilində yol anlamını daşıyan "təriq", "səbil" sözləri də var. "Təriq" sözünün cəmi "turuq"dur ("yollar"), "səbil" sözünün cəmi "subul"dur ("yollar"), "sirat" sözünün isə cəmi yoxdur. Uca Allah ayədə "sirat" sözünü seçərək sirat-i müstəqimin tək doğru yol olduğunu vurğulamışdır.

İmam Razi yazır ki, ayədəki "sirat-i müstəqim" ifadəsi insanın uca Allahdan başqa hər şeydən üz çevirərək bütün qəlbi, fikri, zikri ilə Allaha yönəlmiş olmasıdır. Ona görə də "Bizi doğru yola yönəlt!" ayəsini oxuyan qulun məqsədi uca Allahın onu haqqında danışılan özəllikləri olan yola yönəltməsini istəməsidir, yəni bizi cənnəti haqq etmiş, nemət verilmişlərin yoluna yönəlt.

"Sirat-i müstəqim" ən yaxın və ən qısa yoldur, mən acizəm, Allahım, halıma uyğun olan yol Sənin tək doğru yolundur, uzaq və əyri yolları getmək imkanım yoxdur. Dosdoğru yol tək doğru yoldur, ikincisi yoxdur. O yol qorxu və bəlalardan qoruyan təhlükəsiz yoldur. Dosdoğru yol insanı hədəfinə qovuşdurar, əyri yollar isə azdırar. Dosdoğru yol dəyişməz, əyri yollar dəyişə bilər.

İmam Razi uca Allah ayədə niyə "məni" deyil də, "Bizi doğru yola yönəlt!" deməyimizi istəməsinin səbəblərini dörd maddədə belə açıqlamışdır:

- dua ümumi olduğu zaman qəbul edilməyə daha yaxın olur;
- Allah Rəsulu: "Allaha Ona üsyan etmədiyiniz dillərlə dua edin", - buyurdu. Səhabə: "Ey Allahın Rəsulu, hansımızın elə dili var?" - dedi. Allah Rəsulu buyurdu: "Bir-birinizə dua edin. Çünki sən onun, o da sənin dilinlə Allaha üsyan etməmişdir";
- uca Allah sanki belə buyurmuşdur: "Ey qulum, Fatihə surəsinin əvvəlində "əlhəmdülillah" demədinmi? Sən "əlhəmdülillah" deyərək öncə bütün həmd edənlərin həmdini birləşdirdin. Eyni şəkildə dua edərkən də onları duana qat, bizi hidayətə yönəlt de";
- qul "bizi" deyərkən sanki bunu söyləmiş olur: "Sənin Rəsulunun: "Birlik rəhmət, ayrılıq isə əzabdır", - hədisini eşitdim. Sənə həmd etmək istəyəndə bütün həmdləri dilə gətirdim: "Yalnız Sənə qulluq edərik", - dedim. İbadəti yerinə yetirəndə hər kəsin ibadətini ifadə edərək "əlhəmdülillah" dedim. Yardım tələbində olarkən hər kəsin yardım tələbini söyləyərək: "Yardımı da ancaq Səndən istəyirik", - dedim. Şübhəsiz, hidayət istəyəndə də onu hər kəs üçün istəyərək: "Bizi doğru yola yönəlt", - dedim. Saleh kimsələrlə birlikdə olmaq istəyəndə hamının onlarla birgə olmasını istəyərək: "Bizi nemət verdiklərinin yolu olan doğru yola yönəlt", - dedim. Hüzurundan qovulanlardan uzaqlaşmağı istəyəndə də hamının uzaq olmasını istəyərək: "Azmışların və qəzəbə düçar olmuşların yolundan uzaq tut", - dedim. Dünyada elçilər və saleh insanların yolundan ayrılmadığım üçün axirətdə də onlardan ayrılmayacağıma ümid edirəm" (Fahruddin er-Razi, Tefsir-i Kebir, İstanbul, 2013, c. I, s. 357-358).

VI
"BİZİ QƏZƏBƏ UĞRAYANLARIN VƏ AZMIŞLARIN YOLUNDAN UZAQ TUT!"

Allah Rəsulu buyurur: "Qəzəbə uğrayanlar yəhudilər, azanlar xristianlardır" (Tirmizi, Tefsir, 2/2957). Yəhudilər dinin ruhunu öldürüb, cəsədinə, xristianlar dinin cəsədini öldürüb, ruhuna sarıldılar (Mustafa İslamoğlu, Kuran surelerinin kimliği, s. 27) onlar bədənlə ruhu bir-birindən ayırdılar. Yəhudilər uca Allahın elçilərini öldürdülər, xristianlar elçini uca Allahın oğlu elan etdilər.

Ayənin mövzusu qəzəbə uğrayanlar və azanlar deyil, onların yoludur. Onların yolu ilə gedən hər kəs qəzəbə uğrayar, azar.

(Ardı var...)

“Bütün ölümlərə COVID-i səbəb göstərib, insanları qorxu altında saxlamaq olmaz“

COVID-19-un korluq törətməsi mümkün deyil

COVID-19-a yoluxub sağalmış bəzi insanların “sanki psixikasında dəyişiklik əmələ gəlib” kimi deyimlərinin tez-tez şahidi oluruq. Vəziyyəti kafi qiymətləndirilən, hətta sağalmaq üzrə olan bəzi xəstələrin qəflətən ağırlaşması və tənəffüs dayanmasından dünyalarını dəyişdiyi də söylənilir. Təcili tibbi müdaxilənin kömək etmədiyi bu halı virusun uzunsov beyinə keçib, tənəffüs mərkəzini blokada etməsilə əlaqələndirirlər. Səbəbinin kəskin hipotoniya, bəzi ölümlərin isə virusun qandamar mərkəzinə iflicedici təsirilə əlaqədar olduğu bildirilir.

Bu sözləri tibb elmləri doktoru, professor Musa Qəniyev deyib. Həkim bildirib ki, İngiltərədə Derbi Kral Xəstəxanası klinisistlərinin “Cures” jurnalında dərc olunmuş məqaləsində hospitala ağır pnevmoniya diaqnozu ilə daxil olmuş 54 yaşlı xəstədə COVID-19-un fəsadı kimi kortikal korluğun (tam korluq) baş verdiyi söylənilir:

“Bildirmək istəyirəm ki, bu cür məlumatlar insanların qorxu və ağır ruhi sarsıntı kimi korreksiyaolunmaz pozğunluqlara köklənməsinə xidmət edir. Tənəffüsün qəflətən dayanması və ya kəskin hipotoniya kimi ölümlə nəticələnən halın koronavirusla birbaşa bağlılığı yoxdur. Bu ölümlərə COVID-19-u səbəb kimi göstərib, insanları qorxu altında saxlamaq olmaz.

İybilmə hissinin yoluxmanın ilk günlərində itməsi, virusun baş beyində sinirlə nəqlinin isə bu keçid yolunun 7-ci günündən sonra başlaması da virusun sinirlə nəqlinin inkarını təsdiq edir.

COVID-19-un korluq törədə bilməsi, ümumiyyətlə mümkün deyil. Çünki görmə sinirinin torlu qişadan başlayıb görmə mərkəzinə, yəni ənsə payının “Mahmuz” şırımına qədərki yolunun heç bir sahəsində COVID-19-un bağlandığı aktiv reseptor mexanizm yoxdur.

Xəstəliyi keçirmiş, eləcə də xəstəliyin davamı müddətində bəzi insanlarda müşahidə olunan operativ yaddaş pozğunluğu (xarici qıcığa və paralel reaksiyalara qarşı optimal cavab reaksiyasının uzanması və s.), mnestik və koqnitiv funksiyada törənən dəyişikliklər, “beynin sanki dumanlanması”, “şüurun qaranlıqlaşması” və sair kimi əlamətlər, immun sistemin virusa qarşı kəskin əks reaksiyasının nəticəsidir. Bu hal İgG antitellərin titrinin yüksək olduğu halda aparılan vaksinasiya və ya revaksinasiya halında da müşahidə oluna bilər. Bu pozğunluqların hər biri zaman-zaman bərpa olunacaq, normal haldır. Odur ki, buna görə xüsusi narahatlığa əsas yoxdur.

Baş beynin mikrob, bakteriya, virus etiologiyalı iltihabi-destruktiv patologiyaları yalnız bu mikrovarlıqların HEB-i keçərək baş beyinə və ya onurğa beyninə düşdüyü halda mümkündür”.

“Yeniyetmələrin peyvəndlənməsi artıq zəruridir”

Ənənəvi təhsilə qayıdış koronavirusa yoluxma sayına təsir göstərib. Şagirdlər, tələbələr arasında COVID-19-un yayılması xəbərlərinə artıq bir şagirdin ölüm ilə bağlı məlumat da əlavə olunub.

Uşaqlar kecirici, yoluxdurucu rolunu oynayır



Azərbaycan Tibb Universiteti 1-ci Cərrahi xəstəliklər kafedrasının professoru Adil Qeybulla açıqlamasında deyib ki, koronavirusun əvvəlki dalğalarda olduğu kimi, indikində də uşaqlar keçirici risk qrupuna daxildir:

”Uşaqlar təhlükəli qrupdur. Çünki onlar infeksiyanın keçirici, yoluxdurucu rolunu oynayır. Hazırki mərhələdə gənclərin yoluxması, xəstəliyin onlarda daha ciddi şəkildə davam etməsi, hətta ölüm hallarının müşahidə edilməsi Dünya Səhiyyə Təşkilatının tövsiyəsini ortaya çıxarıb: 12 yaşdan yuxarı yeniyetmələrin vaksinasiyası zərurəti”.

Həkimin sözlərinə görə, artıq gənclər arasında da ölüm halları müşahidə olunur:

”Bu, narahatedici haldır. Vaksinasiyanın yaş həddinin endirilməsi bununla bağlıdır. Həqiqətən, vaksinasiya olunmaq vacibdir. Çünki vaksin olunan şəxslərin əksəriyyətində immunitet formalaşır.

“Pfizer” vurduran 10 nəfərdən 9-da immunitet formalaşır. Artıq immunitet formalaşan şəxs ya yoluxmur, ya da yoluxdurucu olmur. Yəni yoluxma zənciri orada qırılır. Vaksinasiyanın önəmi bundan ibarətdir. Bu həm də kollektiv immunitetə çatma yolunda mühim addımdır”.

Adil Qeybulla əyani dərslərin başlanmasının yoluxmanı artırdığını qeyd edib:

”Vaksinasiyaya ciddi yanaşmalıyıq. Təhsilin hazırda əyani başlanması yoluxmada müəyyən artımlara səbəb olub. Orta məktəblərdə də yoluxmalar var. Bu baxımdan diqqətli olmaq lazımdır. Tələbələr karantin qaydalarına əməl etməlidir. Təəssüflər ki, gənclər diqqət yetirmirlər”.

Nəzrin Vahid

Yusif Seyid

Sosial vəziyyət gərginləşir

Artıq deputatlar da, dil açdı

Son illər ölkəmizdə insanların həyat səviyyəsi çox aşağı düşüb. Ancaq, nə hökumətimiz, nə də xalqı və milləti talayaraq milyonlara sahib olan məmurlarımız bunu etiraf etmək istəmirlər. Bir çox hallarda qanunverici orqan olan parlamentin bir çox deputatları da, məmurları dəstəkləyərək, vətəndaşların yüksələn rifah səviyyəsindən «dəm vururlar».

Son zamanlar isə sosial vəziyyətin ağırlaşdığı barədə məmurlar sussalar da, artıq bir sıra deputatlar bunu parlamentin tribunasından belə, səsləndirmək məcburiyyətində qaldılar. Çünki ölkəmizdə minimum pensiya 200 manat, minimum əmək haqqı 250 manat olduğu halda, insanların rifahının yüksəlişindən danışmaq, ən azından vicdansızlıqdır. Hər kəsə məlumdur ki, bu pula yaşamaq mümkün deyil. Ona görə də, çox istərdim ki, hörmətli Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev cavab versin ki, bu pula necə yaşamaq olar? İki gündən bir SOCAR, «Azərsu», «Azəriqaz», «Azərişıq» və s. qurumlar qiymətlərin qaldırılması üçün «əsaslandırılmış faktlar» icad edərək, Tarif (Qiymət) Şurasına müraciət edir, bu Şura da heç bir yoxlama, araşdırma aparmadan, onların təqdim etdikləri «əsaslandırmanı» əllərində dəstəvuz edərək qiymətləri qaldırır. Bəc nə üçün, ölkəmizdə əməyin qorunmasına, əmək şəraitinin yaxşılaşdırılmasına, əməyə görə adekvat əmək haqqının ödənilməsinə, eləcə də, əhalinin sosial müdafiəsinə məsul olan Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev bir dəfə də olsun parlament, yaxud hökumət qarşısında məsələ qaldırmır ki, bu millət yazıqdır, bugünkü halda insan ayda 200-300 manata yaşaya bilməz. Bu, onları ac-yalavac küçəyə atmaq kimi bir şeydir. Yox, demir, susur, çünki bu məmurlar çetesinin hər ay ən azından 2-3 min (mən halal maaşlarını nəzərdə tuturam, inanmıram ki, bizim məmurlarımız «harama əl uzatsınlar») manat xərcləmək imkanları var, yəni əməkçi insanlardan və bütün həyatını əməyə sərf edən pensiyaçılardan 10-15 dəfə çox.

Deputat Sabir Rüstəmxanlı parlamentdə haqlı olaraq soruşdu ki, ölkəmizdə, ümumiyyətlə qiymətləri tənzimləyən bir qurum varmı? Sonra da təklif etdi ki, bu məsələnin müzakirəsi uçun parlamentin ayrıca iclası çağrılsın.

Bütün deyilənlərdən çıxan nəticə budur ki, parlamentdə və hökumətdə sosial məsələlərin geniş müzakirə olunmasının vaxtı artıq çoxdan çatıb. Amma bu qurumlarda sadə insanların səsini eşitmək istəyən yoxdur. Hökumət isə özü çalır, özü də oynayır, xalqın oynamaq halında olmadığını isə görmək belə istəmir.

Rəhmətlik Sabir əfəndimiz (M. Ə.S.) demişkən:
Millət necə tarac olur, olsun nə işim var?!
Düşmənlərə möhtac olur, olsun nə işim var?!
Qoy mən tox olum, özgələri ilə nədir karəm,
Dünyəvü cahan ac olur olsun, nə işim var?!

Amma bir ağır gün gələndə meydanda ancaq kasıblar olur. 44 günlük Vətən Müharibəsi də, bunu bir daha sübut etdi.

Bəzən deyirlər, sən niyə bu hökumətin işinə qarışırsan ki, bu günə də qalasan, «palaza bürün, ellə sürün» Əslində, mən nə karəyəm ki, hökumətin işinə qarışım, sadəcə bir kasıb yazaram ki, Sabir əfəndi demişkən:

Şairəm, əsrimin ayinəsiyəm,
Məndə hər kəs görür öz göz-qaşını;
Necə kim, dün «Birisi» baxdı mənə,
Gördü ayinədə ancaq özünü.

yaxud,

Şairəm, çünki vəzifəm budur əşar yazım,
Gördüyüm nikü bədi eyləyim izhar, yazım,
Günü parlaq, gündüzü ağ, gecəni tar yazım,
Pisi pis, əyrini əyri, düzü həmvar yazım,
Niyə bəs böylə bərəldirsən, a qare gözünü?
Yoxsa bu ayinədə əyri görürsən özünü?!

Bax, dostlar, mən şair olmasam belə, gördüklərimi, eşitdiklərimi, bildiklərimi, bilmədiklərimi belə, sizin diqqətinizə çatdırmağa çalışıram ki, xəbəriniz olsun, bunları mən biliməsə, demək ki, bunları bilməyən yoxdur, bu məmləkətdə. Amma heç kim gözündəki tiri belə, görmək istəmir, onu da anlamaq istəmirlər ki, o tir başını yaranda, artıq çox gec olacaq!

Vətəndaşların kart məlumatlarını ələ keçirənlər saxlanıldı

Son günlər Daxili İşlər Nazirliyinə vətəndaşlardan bank kartlarından müxtəlif məbləğlərdə pul vəsaitlərinin oğurlanması, həmçinin "Whatsapp" ani mesajlaşma proqramı ilə onlara bankların adından müraciətlərin və zənglərin edildiyi barədə şikayətlər daxil olub.

Daxili İşlər Nazirliyindən Teleqraf.com-a bildirilib ki, vətəndaşlar onlara zəng edən və sms yazan şəxslərin guya təhlükəsizlik tədbirlərinin gücləndirilməsi məqsədi ilə kart məlumatlarının onlara göndərilməsini tələb etdiklərini bildiriblər. Məlumatları göndərən kart sahiblərinin isə sonradan hesablarından pullar onlayn yolla oğurlanıb. Nazirliyin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşlarının həyata keçirdikləri əməliyyat-texniki tədbirlər zamanı qeyd edilən kibercinayətləri törədən mütəşəkkil dəstənin başçısı Cahad Hüseynov, onun qardaşı Nicat, qohumu Fərman Hüseynzadə, eləcə də Xanna Əliyeva və Dilşad İsmayılova saxlanılıblar. Onların yaşadıqları paytaxt ərazisində yerləşən evlərə baxış zamanı çoxlu sayda elektron sübutlar, istifadələrində olan mobil telefon və digər məlumat daşıyıcıları vasitəsi ilə vətəndaşlara özlərini bank əməkdaşı kimi təqdim edərək göndərdikləri hazır mətn formaları, səs yazıları aşkar olunaraq götürülüb.

Qeyd edək ki, dəstə üzvlərinin vətəndaşlarla əlaqə saxlayan zaman istifadə etdikləri mobil telefon nömrələrinin heç biri onların öz adlarına olmayıb. Onlar tanımadıqları insanlara məxsus mobil nömrələri xüsusi proqramlar vasitə ilə ələ keçirərək zərərəçəkənlərlə əlaqə saxlayıblar.

Qeyd olunan faktlarla bağlı Baş İdarənin İstintaq və Təhqiqat İdarəsində araşdırmalar davam etdirilir. Hazırda göstərilən xüsusatların tam, hərtərəfli araşdırılması istiqamətində zəruri əməliyyat-istintaq tədbirləri davam etdirilir.

Daxili İşlər Nazirliyi vətəndaşlara bir daha müraciət edərək bildirib ki, şəxsi anket və bank kartlarındakı məlumatları heç bir halda tanmadıqları şəxslərə göndərməsinlər və bu cür hallarla üzləşdikləri təqdirdə isə polis əməkdaşlarına, həmçinin Nazirliyin sosial şəbəkələrdəki rəsmi səhifələrinə dərhal məlumat versinlər.

Məktəblərdən uşaqlar oğurlanır?

DİN: Səs yazıları araşdırılır

Daxili İşlər Nazirliyi (DİN) sosial şəbəkələrdə və vatsap qruplarında məktəblərdən uşaqların oğurlanması ilə bağlı yayılan məlumatlara münasibət bildirib.

DİN-in Mətbuat Xidmətinin şöbə rəisi, polis mayoru Elşad Hacıyev Teleqraf.com-a bildirib ki, hazırda vatsap qruplarında yayılan səs yazıları ilə bağlı araşdırma aparılır:

"Bu, tamamilə yalan və cəfəngiyyatdır, təxribat məqsədi daşıyır. DİN-ə səs yazısında iddia olunan hallarla bağlı hər hansı şikayət, yaxud müraciət daxil olmayıb. Vətəndaşlara tövsiyə edirik ki, bu kimi faktsız iddialara inanmasınlar".

Qeyd edək ki, son günlər məktəblərdən uşaqların oğurlanması ilə bağlı sosial şəbəkələrdə və vatsap qruplarında səs yazıları yayılır. Bildirilir ki, Bakı və Sumqayıt ərazisində məktəblərdə uşaqların oğurlanmasına cəhd halları baş verir.

MTN işində bankir oğlu sirlər açdı: "Atam dedi, mən sizdən narahatam"

Ləğv edilmiş Milli Təhlükəsizliyi Nazirliyinin Baş İstintaq İdarəsinin rəisi, general-mayor Mövlam Şıxəliyev, istintaq idarəsinin rəisi müavini, 1-ci şöbənin rəisi Yasin Məmmədov və digər vəzifəli şəxslərin qanunsuz əməllərindən zərərçəkənlərdən biri də "Texnikabank" ASC-nin Müşahidə Şurasının sədri Etibar Əliyevin oğlu Kəramət Əliyevdir.

Etibar Əliyev həbs olunandan sonra onun oğlu Kəramət Əliyev MTN-ə çağırılıb, orada incidilib.

Kəramət Əliyev istintaqa verdiyi ifadəsində göstərib ki, atası Etibar Əliyev 1993-cü ildən etibarən "Texnikabank" ASC-nin müşahidə şurasının sədri vəzifəsində çalışıb: "2012-ci il martın 6-da atam ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin əməliyyat qrupu tərəfindən evin qarşısında tutuldu, sonra idarəyə aparıldı. Orada da həbs olundu".

Kəramət Əliyev qeyd edib ki, mayın 7-də istintaqa çağırılıb: "Məni şöbə rəisi Vüsal Ələkbərov qəbul etdi, şifahi dindirdi. Mən heç nəyə imza etmədim. Vüsal mənə üzümə adam qoyaraq tutacağı ilə hədələdi. Guya kassadan kiminsə pul götürərək mənə verdiyini, yəni mənim kassadan qeyri-rəsmi pul götürdüyümü dedi. Vüsala belə bir şey olmadığını dedim. Vüsal üzümə adam qoyacağını, məni tutduracağını bildirdi".

Kəramət Əliyevin ifadəsinə görə, növbəti günlərdə Vüsal Ələkbərov və idarənin rəis müavini Təhsin Ağayev onu mütəmadi olaraq MTN-ə çağırıb: "Məni şifahi dindirib, sonra tutulacağımla hədələdilər. Təhsin və Vüsal mənim tutulmamağım üçün 3 milyon manat tələb etdilər. Onlar Mövlam Şıxəliyevin tələbinin belə olduğunu, mənim məsələmin atamın məsələsinə adiyyatı olmadığını bildirdilər. Atam hətta bir dəfə Vüsalın nömrəsi ilə mənə zəng etdi. Atam öz işimi həll etməyimi, mənə görə narahat olduğunu dedi. Mən də hədələrdən qorxaraq, psixi gərginlik keçirdim. Mövlam Şıxəliyevin Vüsal və Təhsin vasitəsi ilə dedikləri tələblərlə razılaşdım. Amma 500 min avro düzəldə bilməyəcəyimi dedim".

Kəramət Əliyevin bildirdiyinə görə, bundan sonra bir dəfə Təhsin Ağayevin xidməti otağında görüşüb: "Görüş zamanı Təhsin məndən Mövlam Şıxəliyevin pulu nə vaxt verəcəyim barədə maraqlandığını və nə cavab verdiyim barədə soruşdu. Mən də Təhsinə atamın dostu, türk iş adamı Əhmədə borc verməsi üçün müraciət etdiyimi bildirdim. Təhsin həmin zaman öz nömrəsindən Əhmədə zəng etdi, ondan "Kəramət sənə nə deyib?" soruşdu. Əhməd də cavabında sadəcə təsdiqlədi. Əhməd həmin danışıqdan 3-4 gün sonra 500 min avronu mənə "Port-Baku"da yerləşən ofisində verdi. Mən də pulu həmin gün saat 16 radələrində MTN-in arxa qapısında Vüsal Ələkbərova verdim. Vüsal Ələkbərov mənim "Mercedes S klass" markalı maşınıma əyləşdi. Məndən nə qədər pul olduğunu soruşdu. Ona 500 min avro düzəldə bildiyimi dedim. Vüsal Ələkbərov Mövlam Şıxəliyevin 3 milyon manat istədiyini dedi. 500 min avroya Mövlamın razı olmayacağını bildirdi. Ona bundan artıq pul düzəldə bilməyəcəyimi söylədim. Vüsal Ələkbərov pulu götürdükdən sonra getdi".

> *"Məni şifahi dindirib, sonra tutulacağımla hədələdilər"*

Kəramət Əliyev qeyd edib ki, bundan sonra Vüsal Ələkbərov və Təhsin Ağayev bir müddət onu narahat etməyib: "Həmin ərəfədə Vüsal və Təhsin mənə əmlaklarımı satıb, pul düzəltməyi təklif etdilər. Mən də əmlakların həbsdə olduğunu dedim. 2012-ci ilin sentyabrın əvvəllərində Vüsal Ələkbərov zəng edərək məni MTN-ə dəvət etdi, pulu tam verməyi tələb etdi. Vüsala axı məsələnin həll olunduğunu dedim. Vüsal isə "axı mən kiməm ki, ay Kəramət" dedi. Mən artıq pulum olmadığını dedim. Vüsal mənə H.Əliyev küçəsi 63 ünvanındakı 5 mərtəbəli binanı onların adamlarına satmağı təklif etdi. Mən həmin əmlakın həbsdə olduğunu dedim. Vüsal isə həmin əmlakın həbsdən çıxaracağını bildirdi".

Kəramət Əliyev deyib ki, 2012-ci ilin sentyabrın ilk günlərində atası Etibar Əliyev Vüsal Ələkbərovun telefonundan ona zəng edib: "Mən həmin vaxt atamla danışdım. Atam dedi ki, Vüsalın dediyi məsələni Allah xətrinə həll edin, mən sizdən narahatam. Mən atamın əmlakının satılmasını və pulu MTN-ə verilməsini istədiyini başa düşdüm. Həmin əmlak anam Esmira Bayramovanın adına olub. 2012-ci il sentyabrın əvvəllərində Vüsal Ələkbərovla birlikdə Nərimanov rayonunda yerləşən dövlət əmlakının qeydiyyat idarəsinə getdik. Orada aşağıda gözlədim. Vüsal Ələkbərov isə sənədlərlə həmin idarənin rəisinin yanına getdi. Təxminən yarım saatdan sonra oradan çıxanda həmin əmlakın üzərindən həbsin götürüldüyünü və alqı-satqının mümkün olduğunu dedi".

> *"Atam azadlığa çıxandan sonra bu barədə ona danışdım. Atam buna inanmadı"*

Kəramət Əliyevin bildirdiyinə görə, sentyabrın 8-də Vüsal Ələkbərovun tələbi ilə birlikdə 6 saylı notariat kontoruna gediblər: "Vüsal Ələkbərov sənədlərlə birlikdə mənim seçdiyim notarius Ərəstunun yanına girdik. Vüsal Ələkbərov sonra atamın razılıq verməsi üçün MTN-ə aparmalı olduğunu bildirdi. Sentyabrın 10-da öz maşınım ilə Ərəstunu MTN-ə apardım. Atamın razılıq ərizəsi Ərəstun tərəfindən alındı. Sentyabrın 11-də notariusun yanına getdik. Orada Vüsal mənə obyekti öz adamları olan Eldar adlı şəxsə satacağımızı dedi. Vüsal Ələkbərov orada hətta istədi ki, alqı-satqını orada edək, pulu ona verək. Ərəstun buna razılaşmayaraq pulun banka qoyulacağını bildirdi. Həmin gün anam alqı-satqı müqaviləsinə qol çəkdi. Sonra biz "Bank Respublika"nın 28 may metrosunun yanında olan filialına getdik. Anam pulu oradan götürdükdə obyektin 3 milyon manata satıldığını bildik. Çünki qiyməti biz heç kimlə razılaşmamışdıq. Qiyməti Vüsal Ələkbərovun özü müəyyən etmişdi. Həmin gün pulu Vüsal və Təhsinə verdim. MTN-in inzibati binasının yaxınlığında yerləşən "İmperator" yanında görüşdük. 3 milyon manatı iki ədəd idman çantasında məndən aldılar. Təhsin həmin vaxt çantaların ağır olduğunu da mənə dedi. Bundan sonra məni narahat etmədilər".

Bankir oğlunun ifadəsinə görə, təxminən 2-3 gün sonra Eldarla birlikdə obyektə gedib: "Eldar məndən halallıq istədi. Mən ona halallıq vermədim. Obyektin bizdən zorla alındığını dedim. Daha sonra Eldarı obyektdəki icarəçilərlə tanış etdim. Eldar bir dəfə söhbət zamanı mənə Anarın tanışı olduğunu, Anarın da Etibarla birlikdə tutulduğunu, Anarın qardaşı Sahibin onu yaxşı tanıdığını dedi. Eldarın naşı adam olduğunu hiss etdim. Eldar iş adamına oxşamırdı. O, musiqiçi olduğunu dedi. Eldardan obyektin kimin aldığını olduğunu da soruşdum. Eldar da mənə guya Rusiyadan hansına qohumunun pul göndərdiyini, obyekti də həmin adam üçün aldığını dedi. Sonradan Anarın qardaşı Sahibdən Eldarı soruşdum. Sahib Eldarı tanımadığını dedi. Mən də Eldarın yadımda qalmayan nömrəsinə zəng etdim, Sahiblə danışdırdım. Hal-əhval edəndən sonra Sahib Eldarı xatırladığını, uzaq qohum olduqlarını dedi. Həmin zaman Eldarın ortalığa atılmış adam olduğunu, obyektin əslində Sahibin aldığını başa düşdüm. Çünki həm də alqı-satqıdan təxminən az müddət sonra Anar azadlığa buraxıldı. Atam azadlığa çıxandan sonra bu barədə ona danışdım. Atam buna inanmadı".

Kəramət Əliyevin ifadəsinə görə, Anar azadlığa çıxandan sonra onunla görüşdən qaçıb: "Sonradan obyektlə bağlı məhkəmə prosesləri gedən zamanı Anar ortalığa çıxdı, atama özünü Eldarın yaxın qohumu kimi təqdim etdi. Guya Eldarın obyekti satdığı adamların Ramiz Mehdiyevin kürəkəni İlham Əliyevin adamları olduğunu və obyektin əsl sahibinin İlham olduğunu, Ali Məhkəmənin sonuncunun adamlarının xeyrinə qərar çıxaracağını, İlhama problem yaratmamasını dedi. Atam da İlhama problem yaranmasın deyə iddiadan əl çəkdi".

Ləğv edilmiş Milli Təhlükəsizliyi Nazirliyinin Baş İstintaq İdarəsinin rəisi, general-mayor Mövlam Şıxəliyev, istintaq idarəsinin rəisi müavini, 1-ci şöbənin rəisi Yasin Məmmədov, istintaq idarəsinin 2-ci şöbənin rəisi, polkovnik Vüsal Ələkbərov, istintaq idarəsinin metodiki yardım və kriminalistika şöbəsinin rəisi müavini Sahib Ələkbərovun cinayət işi baxılması üçün Bakı Hərbi Məhkəməsinə göndərilib.

Cinayət işi üzrə 32 iş adamı zərərçəkmiş qismində tanınıb.

Bu cinayət işi üzrə oktyabrın 11-də Bakı Hərbi Məhkəməsində hakim Elbəy Allahverdiyevin sədrliyi ilə məhkəmənin hazırlıq iclası keçirilib.

Məhkəmə baxışı oktyabrın 26-na təyin olunub.

Hacı Zeynalov

SSRİ-nin 30 yaşlı generalı: onun nəşi yandırılıb, külü Kreml divarlarında yerləşdirilib

Kravçenko 300-dən artıq düşmənin hərbi təyyarəsini məhv edib

General rütbəsinə çatmaq hər zabitin arzusudur. Amma "kiçik ulduz"lardan "böyük ulduz"lara gedən yolda uzun, qüsursuz, nümunəvi və müstəsna xidmət tələb olunur.

Dekabrın 7-də Azərbaycan Prezidenti İlham Əliyev xidmət yollarını şərəflə keçən və davam etdirən Azərbaycanın Silahlı Qüvvələrinin dörd zabitinə, Ağamir Sultanova, Anar Kərimova, Namiq İslamzadəyə, Zaur Məmmədova "general-mayor" ali rütbəsinin verilməsi haqqında sərəncam imzalayıb. Sözsüz ki, bu ali rütbələri almaq onların xidmətinə verilən qiymətdir, gələcək xidmətləri üçün stimul və həm də böyük məsuliyyətdir.

Sovet dövründə də ali rütbələri "fəth" etmək hərbi qulluqçular üçün ən böyük arzulardan biri sayılıb. SSRİ-də ayrı-ayrı dövrlərdə general rütbəsi daşıyanların sayı dəyişib. Sovet-alman müharibəsi sona çatanda ölkənin silahlı qüvvələrində 5599 general və admiral olub.

Nikita Xruşşov hakimiyyətə gəldikdən sonra Stalinin generallarının sayını mümkün qədər azaltmağa çalışıb, onların xidmətinin üstündən xətt çəkməklə Stalin mifini sındırmaq istəyib. O, Stalinin şəxsiyyətə pərəstiş məsələsində oğlu Vasili Stalinin adını daha çox qabardıb, onu SSRİ-nin ən gənc generalı adlandırıb və bunu ata hədiyyəsi kimi qiymətləndirib.

Əslində Vasili Stalin heç də SSRİ-də ən gənc general olmayıb. Düzdür, o rütbələrini bir çox generallardan daha çox sürətlə dəyişib, 29 yaşında general olub, kapitan rütbəsindən general rütbəsinə qədər 9 illik xidmət yolu keçib və Vasili Stalin bu rütbələri müharibədəki xidmətlərinə görə qazanıb.

SSRİ-də ən gənc general isə Qriqori Kravçenko sayılıb. "As" ləqəbi ilə tarixə düşən Kravçenko hərbi təyyarəçi kimi bir sıra qəhrəmanlıqlara imza atıb.

Qriqori Kravçenko 1912-ci ildə Dnepropetrovsk vilayətinin Novomoskovski rayonunda anadan olub. Ailə 1914-cü ildə Qazaxstanın Pavlodar vilayətinə, 1923-cü ildə isə Çelyabinskə köçüb. Kravçenko orta təhsilini başa vurduqdan sonra Permdə kənd təsərrüfatı texnikumunda təhsil alıb. 1931-ci ildə hərbi xidmətə yollanıb. Hərbi aviasiyada xidmət edən Kravçenko nümunəvi xidmətinə görə 6 aydan sonra Myasnikov adına hərbi təyyarəçilər məktəbinə göndərilib. Bundan

sonra o, taleyini hərbi aviasiyaya bağlayıb.

Sovet-fin və sovet-alman müharibələrinin iştirakçısı olan Qriqori Kravçenko hərbi əməliyyatlar zamanı əldə etdiyi nəticələrlə sözün əsl mənasında təkcə komandanlığı deyil, o cümlədən, Kreml rəhbərliyini, şəxsən İosif Stalini heyrətləndirib. Təkcə 1941-1942-ci illərdə Kravçenko 300-dən artıq düşmənin hərbi təyyarəsini məhv edib.

Qriqori Kravçenko Çində yaponlara qarşı mübarizədə və sovet-fin müharibəsində göstərdiyi xidmətlərə görə 1940-cı ildə, 27 yaşı olarkən general rütbəsi alıb. İki il ərzində baş leytenant rütbəsindən general rütbəsinə yüksələn hərbi təyyarəçi iki dəfə Sovet ittifaqı qəhrəmanı adı ilə təltif olunub.

Müharibə tarixində Qriqori Kravçenko peşəkar və qorxmaz hərbi təyyarəçi olmaqla yanaşı, həm də güclü yumor hissinə malik, həmişə nikbin görünən bir şəxs kimi yadda qalıb.

Kravçenkonun təltiflərini bir neçə dəfə Stalin şəxsən ona təqdim edib. Belə təqdimatların birində maraqlı anlar yaşanıb.

Təqdimetmə mərasimində Kravçenko Stalinin qarşısına dəvət olunub. Stalin qarşısındakı enlikürək, cüssəli, sinəsi orden və medallarla dolu olan hərbçiyə nəzər saldıqdan sonra aramla fikir bildirib:

"Sizin mundirinizdə hələ çox orden və medallara yer var. Şəxsən mən Ali Baş Komandan kimi bunu nəzərdə saxlayacağam",-deyə bildirib.

Kravçenko da öz növbəsində Stalinin mundirinə nəzər salıb və cəmisi bir qızıl ulduz gördükdən sonra fikrini bildirməkdən çəkinməyib:

"Yoldaş Stalin, sizin mundirinizdə isə yalnız bir ulduz var. Qarşınızda bu qədər orden və medallarla dayanmaq mənim üçün o qədər də rahat deyil. İcazə verin ordenlərimdən birini sizə hədiyyə edim".

Stalin qarşısında dayanan hərbi təyyarəçinin fikirlərini səmimiyyətlə və təbəssümlə qəbul edib:

"Düşmən təyyarələrinə aman verməyən bir hərbi təyyarəçinin Ali Baş Komandanla belə cəsarətlə danışmasını səmimi qəbul edirəm. Amma bilməlisiniz ki, sizə verilən bu mükafatlar sizin haqqınızdır. Xalq sizi tanımalıdır. Biz isə orden və medalsız da tanınırıq".

Qələbənin təmin olunmasında böyük xidmətləri olan Qriqori Kravçenkoya qələbə gününü görmək qismət olmayıb. 23 fevral 1943-cü ildə, saat 12-25 dəqiqədə Kravçenko sonuncu uçuşunu həyata keçirib. Səma döyüşlərində 3 düşmən təyyarəsini məhv edən Kravçenko sonradan özü düşmənin hədəfinə düşüb. Vurulan zərbədən ayağından və qolundan yaralansa da, o, paraşütlə tullanmağa imkan tapıb. Onu yalnız 3 saatdan sonra yaralı vəziyyətdə tapmaq mümkün olub. Bu haqda Stalinə də məlumat verilib. Stalin Kravçenkonun təcili hospitala çatdırılması və müalicəsi ilə bağlı birbaşa özü göstərişlər verib. Onu hospitala yaralı vəziyyətdə çatdırmaq mümkün olsa da, həkimlər aldığı Kravçenkonu xilas edə bilməyiblər.

30 yaşlı qəhrəman generalın nəşi yandırılıb, külü Kreml divarlarında yerləşdirilib və üzərinə xatirə lövhəsi vurulub.

İlham Cəmiloğlu

Brejnevin Tacikistan səfəri

Fəhlələrin xahişi və baş katibin 1 milyon rubl hədiyyəsi



18 illik hakimiyyəti illərində Leonid Brejnevin bölgələrə səfəri az qala toy-bayramı xatırladıb. Qırmızı xalçalar, yolboyu əllərində gül-çiçək, şüarlar, portretlər qaldıran qırmızı qalstuklu pionerlər, yerli fəal kommunistlərin tərif dolu "xoş gəldin" çıxışları əlamətdar bayramlarla bağlı keçirilən tədbirlərdən heç də geri qalmayıb. Adətən baş katib ölkədaxili səfərlərində olduğu yerlərdə planlaşdırılmamış görüşlər də keçirib, mağazalara, mədəniyyət evlərinə, zavod və fabriklərə də baş çəkib və belə görüşlərdə maraqlı məqamlar az olmayıb.

1970-ci ildə Brejnevin Tacikistana səfəri haqqında müttəfiq respublikanın rəhbərləri yalnız üç gün əvvəl məlumat alıblar. Avqustun 27-də Tacikistan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Cabbar Rəsulava məlumat verilib ki, Brejnev sentyabrın 1-də Tacikistana səfər edəcək. Qeyd edək ki, Cabbar Rəsulov Brejnevlə yaxın münasibətləri ilə fərqlənən birinci katiblərdən olub. O, 1961-ci ildən ömrünün sonuna, 1982-ci ilə qədər respublikaya rəhbərlik edib.

Ali qonağın gəlişinə Tacikistanda ciddi hazırlıq işləri başlanıb. Baş katibin səfər proqramında əsas tədbir Nurek şəhərindəki su elektrik stansiyasının tikintisində gedən işlərlə tanış olmaq olub. Bir gün əvvəldən Cabbar Rəsulov Nurekdə olub, su elektrik stansiyasının tikintisində işləyənlərlə görüş keçirib, onları təlimatlandırıb, baş katibə artıq-əskik sualların verilməməsinə göstəriş verib.

Beləliklə, Brejnevin sentyabrın 1-də başlanan səfəri rəsmi müşavirə ilə start götürüb. Sonra baş katib Tacikistan paytaxtında bir neçə müəssisəni gəzib, yol boyu bir neçə mağazaya da baş çəkib. Daha sonra rəsmilərin avtomobil karvanı Düşənbədən 70 kilometr aralıda yerləşən Nurekə istiqamət alıb. Həmin dövrdə yenicə şəhər statusu almış Nurekin əhalisi 10 min nəfərdən də az olub. Əhalinin əsas hissəsi isə stansiyanın tikintisində işləmək üçün SSRİ-nin ayrı-ayrı bölgələrindən gələn şəxslər olub.

Brejnev tikinti işləri ilə yaxından maraqlanıb. Əvvəlcə baş katib ərazidəki qərargahda şəhər rəhbərliyi, tikintiyə cavabdeh olan mütəxəssislərlə görüş keçirib. Hava mülayim olduğundan Brejnev ərazini də gəzib. Daşlı-çınqıllı yollarla fəhlələrin işlədiyi sonuncu nöqtələrə də gedib. Baş katib işçilərin əməyini yüksək qiymətləndirib, relyefi mürəkkəb olan bir ərazidə işlərin sürətlə getməsi onun ürəyincə olub. Fəhlələr Brejnevin əhvalının yüksək olmasından istifadə edərək onunla dialoqa giriblər. Brejnev onların məişət şəraiti ilə maraqlanıb. Elə bu məqamda inşaatçılar mənzil və məişət şəraitinin sıfır dərəcəsində olması ilə bağlı gileylərini baş katibə çatdırıblar. Fəhlələrlə dialoqdan sonra Brejnevin Cabar Rəsulovla dialoqu başlayıb:

Cabbar Rəsuloviç, siz bu stansiyasının ölkəmiz üçün nə qədər vacib olduğunu yəqin ki, bilirsiniz.

Xoşagəlməz vəziyyətə düşən birinci katib cavab verib:

Əlbəttə bilirəm, Leonid İliç.

Bəs onda nəyə görə bu stansiyanı tikənlər üçün lazımi şərait yaratmırsınız. Özünüz şahidi oldunuz ki, onların kifayət qədər problemləri var.

Yoldaş Brejnev, büdcəmiz buna imkan vermir. Bu haqda bir neçə dəfə Nazirlər Sovetinə yazılı müraciət də etmişik.

Fəhlələrin mənzil şəraitini yaxşılaşdırmaq, onlara evlər tikmək üçün nə qədər vəsait lazımdır?

Biz bunu bir neçə dəfə hesablamışıq. Hətta yaşayış binalarının tikintisi üçün əraziyə mütəxəssislər də dəvət etmişik. Təxmini hesablamalara görə 1 milyon rubl vəsaitlə bu problemi aradan qaldıra bilərik.

Kiçik bir sükutdan sonra Brejnev üzünü fəhlələrə tutub:

Mən sizə 1 milyon rubl hədiyyə edirəm. Çox yaxın zamanlarda siz rahat mənzillərdə yaşayacaqsınız.

Baş katib sözünün üstündə durub. Moskvaya qayıdan kimi, o, Nazirlər Sovetinin sədri Aleksey Kosıginə Nurekdə yaşayış binalarının tikilməsi üçün vəsait ayırmağı tapşırıb.

Bununla da, qısa zamanda Nurek şəhəri öz simasını dəyişib. Şəhərə axın daha da artıb. Su elektrik stansiyası ilə yanaşı Nurekdə beton zavodu, geyim fabriki və digər istehsal müəssisələri də tikilib istifadəyə verilib.

Brejnevin Tacikistan səfərindən sonra Kremlə Nurek şəhərindən minlərlə təşəkkür məktubu daxil olub. Hətta bu şəhərin adını dəyişib Brejnev adlandırmaq təklifləri də irəli sürülüb. Amma nədənsə şöhrət hərisi olan baş katib bu dəfə təvazökarlıq nümayiş etdirərək ad məsələsindən imtina edib.

Qeyd edək ki, Nurek Su Elektrik Stansiyasının birinci bloku 1972-ci ildə, sonuncu bloku isə 1978-ci ildə istismara verilib.

İlham Cəmiloğlu